22 dekabr 2021 №94 (1871)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Prezident İlham Əliyev haqqında sənədli film çəkilib



Azərbaycan Televiziyası Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin 60 illik yubileyi ilə əlaqədar sənədli film hazırlayıb.

"Prezident. Təkrarsız diplomatiya" adlı filmdə dünyanın aparıcı siyasi xadimləri, dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri və nüfuzlu jurnalistlərin müsahibələri yer alıb. Onlar Azərbaycan Prezidentinin şəxsi keyfiyyətləri, prinsipial mövqeyi və liderliyini şərtləndirən xarakterik məqamları şərh ediblər.

Filmdə Azərbaycanın iqtisadi arenada uğurlarından danışılır, həyata keçirilən əhəmiyyətli layihələrdən bəhs olunur.

səh. 2

## Ustadlar ustadının 200 illik yubileyi qeyd olundu

### Aşıq Ələsgər yaradıcılığı Azərbaycan dilinin, ruhunun ifadəçisidir



Yola salmağa hazırlaşdığımız 2021-ci il xalqımızın yaddaşında həm də söz və sazın bayramı kimi qalacaq. İl ərzində Nizami Gəncəvinin 880, Aşıq Ələsgərin 200 illik yubileyləri münasibətilə rəngarəng tədbir və təqdimatlara şahid olduq.

Dekabrın 20-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında ustad Aşıq Ələsgərin (1821-1926) 200 illik yubileyinə həsr olunan gecə də sazsöz ahəngli ilin unudulmayacaq tədbirlərindən idi.

Mədəniyyət Nazirliyi və Azərbaycan Aşıqlar Birliyinin (AAB) birgə təşkil etdiyi tədbir Prezident İlham Əliyevin Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi haqqında müvafiq sərəncamına əsasən gerçəkləşdi. Tədbirdə tanınmış elm, mədəniyyət və incəsənət xadimləri, aşıqlar, ictimaiyyət nümayəndələri iştirak edirdi.

Yubiley gecəsində çıxış edən mədəniyyət naziri Anar Kərimov Aşıq Ələsgərin Azərbaycan və Türk dünyası ədəbiyyatına, aşıq sənətinə verdiyi töhfələrdən söz açdı. Bildirdi ki, ustad sənətkar çoxəsrlik keçmişə malik aşıq sənəti ənənələrinə yüksək bədii-estetik meyarlarla yeni məzmun qazandırıb. Xalq ruhuna uyğun həmahəng əsərləri ilə Azərbaycanın mədəni sərvətlər xəzinəsinə misilsiz töhfələr bəxş edib. Görkəmli sənətkarın doğma Vətənə məhəbbət aşılayan, ana dilimizin saflığını, məna potensialını və hüdudsuz ifadə imkanlarını özündə cəmləşdirən dərin koloritli yaradıcılığı Azərbaycan ədəbiyyatının parlaq səhifələrindəndir.

Nazir qeyd etdi ki, Aşıq Ələsgər çox sayda yetirmələrindən ibarət məktəb yaradıb, bu ulu sənətin yaşadılması üçün çalışıb. Bununla da o, gələcəyin məşhur el aşıq və şairlərinə güclü təsir göstərib.

davamı səh. 2-də

## "Azərbaycanın inkişaf modeli: Dünən, bu gün və sabah"

Dekabrın 21-də Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin tərəfdaşlığı ilə "Azərbaycanın inkişaf modeli: Dünən, bu gün və sabah" mövzusunda konfrans keçirilib.

Mədəniyyət naziri Anar Kərimov "Azərbaycanın yeni mədəniyyət strategiyası" mövzusunda məruzəsində bildirib ki, Prezident İlham Əliyev tərəfindən Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi çox önəmli mesaj idi. Bu, Azərbaycanın azad edilmiş ərazilərinə öz mədəniyyəti ilə qayıdışı idi.

səh. 2

## 130 il əvvəlin Bakısına əsrarəngiz səyahət

Yaşadığın, səyahət etdiyin şəhərin keçmişinə dair faktlar, məncə, hər kəs üçün maraqlı olar. Hələ bu, XIX əsrə aid fotolardırsa...

Dekabrın 17-də Azərbaycan Milli İncəsənət Muzeyində açılışı keçirilən "Pol Nadar: Bakıya əsrarəngiz səyahət" adlı sərgi paytaxtımızın keçmişinə çox maraqlı səyahət oldu.

Sərgi Mədəniyyət Nazirliyi, Fransanın ölkəmizdəki səfirliyi, Azərbaycan Fransız İnstitutu (İFA) və Milli İncəsənət Muzeyinin birgə əməkdaşlığı ilə təşkil edilmişdi.

Mərasimdə giriş sözü söyləyən İFA-nın direktoru Jerom Kel sərginin Fransa Mədəniyyət Nazirliyi nəzdində fəaliyyət göstərən Memarlıq və İrs Multimedia Kitabxanasının dəstəyi sayəsində ərsəyə gəldiyini dedi. Diqqətə çatdırdı ki, Pol və atası Feliks Nadarın fotoneqativləri həmin kitabxanada saxlanılır.



Tədbirdə çıxış edən mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva bildirdi ki, Azərbaycanın zəngin tarixi və mədəni irsi həmişə xarici ölkələrdən bura gələn səyahətçilərin, o cümlədən sənət adamlarının marağına səbəb olub. Açılışında iştirak etdiyimiz sərgi də bunu deməyə əsas verir.

Nazir müavini qeyd etdi ki, əvvəllər də hər iki ölkədə müştərək sərgilər təşkil olunub. 2012-ci ildə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə təşkil edilən "Fransa inciləri. Fransız incəsənəti Renessansdan XX əsrədək" sərgisi özünün bədii dəyəri, eksponatların zənginliyi ilə mədəniyyət tariximizdə əlamətdar hadisə idi: "Bugünkü sərgidə isə biz Fransanın Memarlıq və İrs Multimedia Kitabxanasının arxivində saxlanılan orijinal neqativlər əsasında çap olunan 70-dək foto ilə tanış olmaq imkanı əldə edəcəyik. Dövrünün ən istedadlı fotoqraflarından olan Pol Nadar təkcə Avropa şəhərlərində yox, eyni zamanda Buxara və Səmərqənd kimi Şərq şəhərlərində də gündəlik həyatı əks etdirən fotolar çəkib. Sənəti onu 1890-cı ildə İstanbula, daha sonra isə Bakıya gətirir. Pol Nadar Bakının unikal memarlıq nümunələrini – Qoşa qala qapıları, Şirvanşahlar sarayı, dükan və bazarları, yerli əhalini lentə alıb. Düşünürəm ki, qədim Bakını Pol Nadarın çəkdiyi bu fotoşəkillər vasitəsilə görmək hər bir tamaşaçı üçün çox maraqlı olacaq".

davamı səh. 8-də

## Azad edilmiş ərazilərin memarlıq görkəmini bərpa edəcəyik

Beynəlxalq Muğam Mərkəzində Azərbaycan Memarlar İttifaqının (AMİ) 85 illiyinə həsr olunmuş tədbir keçirilib.

Qeyd edilib ki, ötən 85 ildə Azərbaycan memarlarının layihələri üzrə bir çox möhtəşəm tikililər yaradılıb. Bu memarlıq nümunələri yalnız respublikamızda deyil, dünyada da tanınır.

səh. 3

## Qafqaz Albaniyasına aid arxeoloji abidə aşkarlanıb

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin tabeliyində fəaliyyət göstərən "Avey" qoruğunun Göyəzən filialı ərazisində aparılan kəşfiyyat xarakterli arxeoloji qazıntılar yekunlaşıb.

Göyəzən dağında yer səthindən təqribən 400 metr hündürlükdə qaya parçalarından inşa edilmiş yeddibürclü Göyəzən qalası tədqiq edilib.

səh. 4

## "Mədəni yenilənmə"də yadda qalanlar...

Mədəniyyət Nazirliyi və YARAT Müasir İncəsənət Mərkəzinin birgə layihəsi olan "Mədəni yenilənmə"nin növbəti mərhələsinə dekabrın 17-də yekun vuruldu. Layihənin məqsədi xaricdə yaşayan, musiqi, teatr, kino, ədəbiyyat və elm sahəsində peşəkar uğurlara imza atmış istedadlı soydaşlarımızın fəaliyyəti ilə Azərbaycan tamaşaçılarını tanış etməkdir.



Layihə çərçivəsində Azərbaycanın Xalq artisti, bəstəkar, Moskva Dövlət Konservatoriyasının professoru Fərəc Qarayev, Müasir Musiqi Assosiasiyasının (Rusiya) aparıcı eksperti, sənətşünaslıq doktoru, musiqişünas Rauf Fərhadov və Türkiyədə yaşayan pianoçu və pedaqoq Samir Mirzəyevlə görüşlər keçirildi.

Dekabrın 15-də Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində professor Fərəc Qarayevin iştirakı ilə onun yaradıcılığına və XXI əsrdə Moskva bəstəkarlarının musiqisinə həsr edilmiş seminar-diskussiyalar təşkil olunmuşdu. Həmin gün eyni zamanda YARAT-ın səhnəsində "SoNoR" ansamblı haqqında kitabın təqdimatı olmuşdu. "SoNoR: iki minilliyin arasında" adlanan kitab çağdaş musiqi mədəniyyətimizdə öz yeri olan ansamblın tarixinə nəzər salır.

davamı səh. 3-də



## Köhnə İskəndərə yeni namə

Silsilə tədbirlər, teatr tamaşaları, sənət, səhnə aksiyaları ilə zəngin olan "Nizami Gəncəvi İli" çərçivəsində növbəti layihə də uğurla gerçəkləşdi.

Mədəniyyət Nazirliyinin dəstəyi ilə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında "İskəndərə yeni namə" tamaşasının premyerası Nizami soraqlı ilin sənət tədbirlərindən idi.

səh. 3

## Milli-mənəvi ruhu ifadə edən səhnə nümunəsi

Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin adı ilə şərəflənən 2021-ci il böyük söz sərrafının şəninə layiq bir çox maraqlı tədbir və təqdimatlar keçirildi.

Dekabrın 17-də Heydər Əliyev Sarayında söz ustadının "Leyli və Məcnun" poemasının motivləri əsasında hazırlanan eyniadlı dastan-tamaşa da "Nizami ili"nin əlamətdar layihələrindən biridir. Nizaminin ilk dəfə ədəbiyyata gətirdiyi qədim rəvayət aşıqların sözü, səsi, saz havası ilə təqdim olundu.

Səhnə işi Mədəniyyət Nazirliyinin dəstəyi, Heydər Əliyev Sarayı və Azərbaycan Aşıqlar Birliyinin birgə təşkilatçılığı ilə dahi Azərbaycan şairi və mütəfəkkirinin 880 illiyi münasibətilə hazırlanıb.

Rəsmilər, elm və mədəniyyət xadimləri, yüzlərlə saz-söz həvəskarı Leyli və Məcnunun nisgilli taleyinə işıq salan tamaşanı izləməyə gəlmişdi.

Dastan-tamaşanın nümayişindən öncə Azərbaycan Aşıqlar Birliyinin (AAB) sədri, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı çıxış edərək layihə barədə danışdı. Bildirdi ki, tamaşa Nizami Gəncəvinin eyniadlı poeması üzərində aşıqların ərsəyə gətirdiyi dastanın səhnələşdirilməsidir.

davamı səh. 5-də

## Elçin Əzizov "Birliyin ulduzları" mükafatına layiq görülüb

Azərbaycanın Xalq artisti, Moskva Böyük Teatrının (Bolşoy Teatr) solisti Elçin Əzizova MDB-nin "Birliyin ulduzları" mükafatı təqdim olunub.

MDB-nin Humanitar Əməkdaşlıq Şurası və Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu (DHƏF) tərəfindən təsis edilmiş "Birliyin ulduzları" mükafatı MDB məkanında humanitar sahədə əldə edilən nailiyyətlərə görə verilən mükafatdır. Bu il 9 ölkənin nümayəndəsi mükafata layiq görülüb. Onların arasında görkəmli şair, yazıçı, ictimai xadim Oljas Süleymenov (Qırğızıstan), MDBMİ-nin rektoru Anatoli Torkunov (Rusiya) və başqaları var.

Təqdimat mərasimi dekabrın 21-də Moskvada, "Paşkov Evi"nin böyük zalında keçirilib.

## "İrs/Erbe" jurnalının növbəti sayı çapdan çıxıb




səh. 3

## "Öyrədərək öyrənirəm"

Mədəniyyət Nazirliyinin yeni ustad dərsləri layihəsi

səh. 5



## Nəsibə Zeynalovanın 105 illiyinə həsr olunmuş ədəbi-bədii gecə

səh. 5

№94 (1871)
22 dekabr 2021
www.medeniyyet.az

# Fəxri adlara görə aylıq təqaüd artırılır

2022-ci ilin 1 yanvar tarixindən fəxri adlara görə verilən aylıq təqaüd 20 faiz artırılacaq. Prezident İlham Əliyev dekabrın 20-də bununla bağlı sərəncam imzalayıb.

"Fəxri adlara görə aylıq təqaüdün verilməsi haqqında" 2005-ci il 4 iyul tarixli sərəncama edilən dəyişikliyə əsasən, fəxri adlara görə aylıq təqaüdün məbləği Xalq yazıçısı, Xalq şairi, Xalq artisti və Xalq rəssamı üçün 150 manatdan 180 manata, Əməkdar elm xadimi, Əməkdar incəsənət xadimi, Əməkdar artist, Əməkdar rəssam, Əməkdar mədəniyyət işçisi, Əməkdar müəllim, Əməkdar həkim, Əməkdar memar, Əməkdar bədən tərbiyəsi və idman xadimi, Əməkdar dövlət qulluqçusu, Əməkdar jurnalist, Əməkdar mühəndis, Əməkdar hüquqşünas, Əməkdar kənd təsərrüfatı işçisi, Əməkdar pilot, Əməkdar tibb işçisi üçün 100 manatdan 120 manata qaldırılır.

Qeyd edək ki, sözügedən sərəncama ötən müddətdə dörd dəfə (2007, 2013, 2018, 2020) müvafiq dəyişikliklər edilib.

# Memarlar və pedaqoqlar təltif olunublar

Prezident İlham Əliyev dekabrın 17-də Azərbaycanda memarlığın inkişafında xidmətləri olan şəxslərin təltif edilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, üç nəfər 3-cü dərəcəli "Əmək" ordeni ilə, yeddi nəfər "Tərəqqi" medalı ilə təltif olunub.

Dövlət başçısının digər sərəncamı ilə beş nəfərə Azərbaycanda memarlığın inkişafında xidmətlərinə görə "Əməkdar memar" fəxri adı verilib. Həmçinin Azərbaycanda memarlığın inkişafında xidmətlərinə görə Fəxrəddin Miralayevə Prezidentin fərdi təqaüdü verilib.

***

Prezident dekabrın 17-də Azərbaycan Dövlət Pedaqoji Universitetinin əməkdaşlarına "Əməkdar müəllim" fəxri adının verilməsi haqqında" sərəncam imzalayıb.

Sərəncama əsasən, Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illiyi münasibətilə və Azərbaycanda təhsilin inkişafında xidmətlərinə görə ali təhsil müəssisəsinin 24 əməkdaşına "Əməkdar müəllim" fəxri adı verilib. Bir nəfər "Şöhrət" ordeni, altı nəfər 3-cü dərəcəli "Əmək" ordeni, on yeddi nəfər "Tərəqqi" medalı ilə, dörd nəfər Prezidentin fəxri diplomu ilə təltif edilib. Sonuncular arasında Əməkdar rəssam, M.Ə.Rəsulzadənin nəvəsi Rəsulov Rəis Azər oğlu da var.

# "Təkrarsız diplomatiya"

## Prezident İlham Əliyevin 60 illik yubileyi ilə əlaqədar sənədli film hazırlanıb

Azərbaycan Televiziyası Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin 60 illik yubileyi ilə əlaqədar sənədli film hazırlayıb. "Prezident. Təkrarsız diplomatiya" adlı filmdə dünyanın aparıcı siyasi xadimləri, dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri və nüfuzlu jurnalistlərin müsahibələri yer alıb. Onlar Azərbaycan Prezidentinin şəxsi keyfiyyətləri, prinsipial mövqeyi və liderliyini şərtləndirən xarakterik məqamları şərh ediblər.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Rusiya Prezidenti Vladimir Putin, Qazaxıstanın Birinci Prezidenti – Elbası Nursultan Nazarbayev Prezident İlham Əliyevin Azərbaycan üçün gördüyü işlər barədə danışıblar.

Türkiyə Prezidenti qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bölgədə cazibə mərkəzinə çevrilib.

Rusiya Prezidenti bildirib ki, Azərbaycan Prezidentinin əsas məqsədi ölkəsini, xalqını xoşbəxt görməkdir.

Nursultan Nazarbayev Azərbaycanın müstəqillik illərində çətin şərtlər daxilində enerjili, müdrik liderin rəhbərliyi ilə inkişaf etdiyini diqqətə çatdırıb.

Filmdə Azərbaycanın iqtisadi arenada uğurlarından danışılır, həyata keçirilən əhəmiyyətli layihələrdən bəhs edilir. Qeyd olunur ki, iqtisadi müstəqilliyin verdiyi güc siyasi müstəqilliyi möhkəmləndirib və ölkənin bir nömrəli probleminin – Ermənistan-Azərbaycan münaqişəsinin həllini yaxınlaşdırıb.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuzun Vətən müharibəsində Qələbəsinə filmdə xüsusi yer ayrılıb.

Film dekabrın 24-də saat 12:00-da, 16:00-da və 22:00-da AzTV-də yayımlanacaq.

# İtaliya şirkətləri və memarları Qarabağda abidələrin bərpasına cəlb edilib

İtaliya nəinki təkcə Avropa qitəsində, dünya miqyasında bizim ən yaxın tərəfdaşlarımızdan biridir. Hesab edirəm ki, indi münasibətlərimiz çox yüksək səviyyədədir. Bunun göstəricisi odur ki, biz strateji tərəfdaşlıq haqqında sənəd imzalamışıq. İtaliya Azərbaycanın strateji tərəfdaşlıq haqqında sənəd imzaladığı Avropa İttifaqına üzv olan 9 dövlətdən biridir. İtaliya bizim əsas ticari tərəfdaşımızdır. Eyni zamanda, dost ölkə olaraq İtaliya bizim azad edilmiş ərazilərdə fəaliyyət göstərmək üçün dəvət etdiyimiz ilk ölkələrdən biri olub.

Prezident İlham Əliyev bu sözləri İtaliyanın "İl Sole 24 Ore" qəzetinə müsahibəsində deyib. Dövlət başçısı Brüsseldə işgüzar səfərdə olarkən dekabrın 15-də İtaliya qəzetinə müsahibə verib.

Prezident diqqətə çatdırıb ki, Azərbaycanın azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinə dəvət etdiyi birinci ölkə Türkiyə, ikinci ölkə İtaliya olub: "Hazırda italyan şirkətlərinin orada icra etdiyi çoxlu layihələr var. Biz italyan memarlarını Şuşadakı tarixi abidələrimizi və məscidlərimizi bərpa etmək üçün dəvət etmişdik. Bu, çox rəmzi mənа daşıyan bir jestdir, çünki Şuşa bizim üçün müqəddəs yerdir. Şuşa Azərbaycanın mədəni paytaxtıdır. Dini məkanlar isə hər kəs üçün müqəddəsdir. Bu, çox yüksək səviyyəli etimaddır. Bu yaxınlarda Şuşaya səfər edəndə işlərini necə görəcəklərini mənə nümayiş etdirən italyan şirkətlərinin nümayəndələri ilə görüşdüm".

Dövlət başçısı qeyd edib ki, Bakıda Zəfər Muzeyinin tikintisinə də İtaliya şirkəti cəlb olunub: "Bu, rəmzi mənа daşıyan digər bir jestdir, çünki siz bu tarixi Qələbənin bizim üçün nə qədər böyük mənа daşıdığını təsəvvürünüzə gətirə bilərsiniz. Biz tərəfdaşlığımızı nümayiş etdirmək üçün və italyan şirkətlərinin yüksək səviyyəli fəaliyyətini, zövqünü və ölkələrimiz arasında dostluq münasibətlərini nəzərə alaraq, məhz buna görə italyan şirkətini dəvət etdik. Mən sizə italyan şirkətlərinin çox fəal iştirak etdiyi azad edilmiş ərazilərdə və Azərbaycanın digər yerlərində çoxsaylı tikinti layihələrini qeyd edə bilərəm".

# "Azərbaycanın inkişaf modeli: Dünən, bu gün və sabah"



Dekabrın 21-də Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin tərəfdaşlığı ilə "Azərbaycanın inkişaf modeli: Dünən, bu gün və sabah" mövzusunda konfrans keçirilib. Konfransın məqsədi Azərbaycanın inkişaf modelini və gələcək hədəflərini hökumət və parlament təmsilçiləri, elm və biznes ictimaiyyəti ilə müzakirə etmək və təkliflər formalaşdırmaqdır.

Tədbirdə əvvəlcə Prezident, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevlə bağlı sənədli film nümayiş etdirilib.

YAP sədrinin müavini – YAP Mərkəzi Aparatının rəhbəri Tahir Budaqov çıxış edərək dünya miqyaslı siyasətçi, Prezident İlham Əliyevin fəaliyyətindən söz açıb. O, Azərbaycan Respublikasının bugünkü inkişafının təməlinin müstəqil dövlətimizin memarı və qurucusu ümummilli lider Heydər Əliyev tərəfindən qoyulduğunu bildirib. Deyib ki, prezidentliyi dövründə Azərbaycanın iqtisadi inkişafını təmin edən İlham Əliyev mürəkkəb geosiyasi məqamlarda da fundamental əsaslara söykənən dövlət siyasətinə sadiq olub. Ölkəmizin başlıca problemini – ərazi bütövlüyünü təmin edən siyasət nəticəsində ötən il Vətən müharibəsindən sonra xalqımızın 30 illik mənəvi iztirablarına son qoyulub.

Konfransda Milli Məclis sədrinin birinci müavini Əli Hüseynlinin "Azərbaycanda dövlət quruculuğu", İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlının "Azərbaycanın iqtisadi inkişaf modeli", Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidovun "Azərbaycan diplomatiyasının uğuru" mövzularında məruzələri dinlənilib.

Mədəniyyət naziri Anar Kərimov konfransda "Azərbaycanın yeni mədəniyyət strategiyası" mövzusunda məruzə edib. Nazir bildirib ki, biz əcdadlarımızın irsini qorumaqla kifayətlənməməliyik, eyni zamanda yeni yaradıcılıq nümunələri də yaratmalıyıq. Bu kontekstdə Mədəniyyət Nazirliyi tərəfindən yeni istiqamətlər müəyyən edilib: "2030-cu il üçün milli prioritetlər siyahısında mədəni və yaradıcı sənayelərin inkişafı da yer alır və dayanıqlı iqtisadiyyatın inkişafı bölməsində bu da qeyd olunub. Vətən müharibəsində Qarabağın azad edilməsindən sonra ərazilərimizə mədəniyyətin qaytarılması missiyamız davam etdirilir. Cənab Prezident tərəfindən Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi çox önəmli mesaj idi. Bu, Azərbaycanın azad edilmiş ərazilərinə öz mədəniyyəti ilə qayıdışı idi. Azərbaycan Qarabağa təkcə iqtisadi, enerji layihələri ilə deyil, eyni zamanda "yumşaq güc"lə – mədəniyyətlə qayıdır. Xocalıda soyqırımı yaşamış bir ölkə olaraq Azərbaycan yenə də dünyaya sülh çağırışları edir".

Anar Kərimov qeyd edib ki, Azərbaycanın iqtisadi, hərbi, enerji təhlükəsizliyi qədər mədəni təhlükəsizliyi də təmin edilməlidir. Bu, nazirlik tərəfindən həyata keçirilən yeni mədəniyyət strategiyasının əsasını təşkil edir: "Yeni mədəniyyət strategiyasının elan olunması Vətən müharibəsində möhtəşəm Qələbə qazandığımız dövrə təsadüf edir. Zəfərimizi möhkəmləndirən amillərdən biri də mədəniyyətimizdir. Mədəniyyətimizi inkişaf etdirməklə vətəndaş cəmiyyətində onun rolunu artırmalıyıq. Yeni reallıqlara uyğunlaşmaq üçün insan kapitalının yeni çağırışlara cavab verməsi, hüquqi bazanın möhkəmləndirilməsi lazımdır. Mədəniyyətin davamlılığını qorumaq bizim ümdə vəzifəmizdir. Bu vəzifəni biz artıq Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsləri ilə həyata keçirməkdəyik. Mədəniyyətin iqtisadi inkişafa töhfəsi gücləndirilməlidir. Bu da bizim yeni missiyamızdan biridir".

Konfransda daha sonra energetika naziri Pərviz Şahbazovun "Azərbaycanın enerji təhlükəsizliyi", Prezident yanında Dövlət İdarəçilik Akademiyasının rektoru Urxan Ələkbərovun "Azərbaycanın inkişaf modeli və davamlı inkişaf", Əqli Mülkiyyət Agentliyi İdarə Heyətinin sədri Kamran İmanovun "Azərbaycanda innovativ inkişaf və əqli mülkiyyət hüquqları" mövzularında məruzələri dinlənilib.

Məruzələrdən sonra Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin həyat və fəaliyyətinə həsr olunan "Böyük yolun Müzəffər davamçısı" kitabının təqdimatı olub. Kitabın ön söz müəllifi, YAP sədrinin müavini Tahir Budaqov nəşrin məzmunu və qayəsi barədə məlumat verib.

# Ustadlar ustadının 200 illik yubileyi qeyd olundu

əvvəli səh. 1-də

Anar Kərimov diqqətə çatdırdı ki, Aşıq Ələsgərin zəngin poetik irsinin geniş tədqiqi, nəşri və təbliğinin mühüm mərhələsi mədəni-mənəvi dəyərlərimizin bütün daşıyıcılarına həmişə diqqət və qayğı göstərən ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır: "Aşıq Ələsgərin yubileyləri






məhz ulu öndərin təşəbbüsü ilə dövlət səviyyəsində qeyd edilib. Böyük söz ustadının respublikamızda və onun hüdudlarından kənarda 150 illik yubiley mərasimi keçirilərkən əlamətdar hadisə baş verib. Azərbaycanlıların əzəli yurdlarından olan qədim Göyçə mahalında, doğulduğu kənddə Aşıq Ələsgərin qəbirüstü abidəsi ucaldılıb. Həmin büst 80-ci illərin sonunda soydaşlarımız öz dədə-baba torpaqlarından didərgin salındıqdan sonra erməni vandalları tərəfindən dağıdılıb. Prezident Heydər Əliyevin sərəncamına əsasən, 1997-ci ildə Aşıq Ələsgərin 175 illik yubileyi dövlət səviyyəsində qeyd edilib. Bu, ulu öndər tərəfindən Aşıq Ələsgər yaradıcılığına, qədim el sənətinə verilən ən yüksək dəyərdir. Bu zəngin ənənə Prezident İlham Əliyev tərəfindən də davam etdirilib. Dövlət başçısının sərəncamı ilə 2011-ci ildə ustad aşığın 190 illik yubileyi ölkəmizdə böyük təntənə ilə qeyd edilib. Prezidentin yüksək diqqətinin nümunəsi kimi Gədəbəydə Aşıq Ələsgər adına Aşıq Məktəbi açılıb".

Nazir bildirdi ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə bu ulu sənətin 2009-cu ildə UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi aşıq sənətinə ölkəmizdə yüksək diqqətin təzahürüdür. Prezident İlham Əliyevin imzaladığı sərəncama əsasən, Bakı şəhərində sənətkarın heykəli qoyulacaq. Aşıq Ələsgər irsi xalqımızın yaddaşında əbədi yaşayacaq.

Azərbaycan Aşıqlar Birliyinin sədri, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı çıxışında Aşıq Ələsgəri ustadlar ustadı kimi səciyyələndirdi: "Ustad sənətkarın yaradıcılığındakı mükəmməlliyə və poetik gözəlliyə baxdığımız zaman belə qərara gəlirik ki, həqiqətən, onun sözü-sənəti Azərbaycan aşıq sənətinin pasportu olmağa layiqdir. Bu mənada Aşıq Ələsgər ustadnamələrindən tutmuş qoşmalarına, təcnislərinə qədər Azərbaycan dilinin, ruhunun təmsilçisidir. Ustadın yaradıcılığına diqqət yetirdikcə əsərlərinin hər misrasında aşıq sənətinin nizamnaməsini görürük".

Çıxışlardan sonra tədbirin bədii hissəsinə keçildi. Aşıqlardan Qələndər Zeynalov, Təbriz Vəliyev, Nəbi Nağıyev, Nazim Quliyev, Vüqar Qurbanov, Bəhmən Göyçəli, Familə Göyçəli, İmran Həsənoğlu, Xanlar Xəlilov, Göyçə Ömürlü, Ağamurad Şirvanlı, Roman Azaflı, Ramin Qarayev, Solmaz Kosayeva, Cahangir Quliyev, Şaiq İncəli, Qabil Borçalı və başqalarının ifalarında Aşıq Ələsgərin yaradıcılığından "Ovşarı" ("Dolanır"), "Qəhrəmanı" ("Cilvələnibdi"), "Şəşəngi" ("Qadan alım"), "Göyçə gözəlləməsi" ("Yavaş get"), "Naxçıvanı" ("Dağlar"), "Şahsevəni" ("Yaylaq") saz havaları səsləndirildi. Qiraətçilərin ifasında isə saz-söz ustadının "Ustadnamə", "Qəmərcanı", "İncimərəm", "Qadan alım", "Çeşmə" folklor qrupunun ifasında "Ceyranım" və digər şeirləri səsləndirildi. Çıxışlar alqışlarla qarşılandı.

**Savalan FƏRƏCOV**

# "Media haqqında" qanun layihəsi ikinci oxunuşdan keçib

Dekabrın 20-də Milli Məclisin plenar iclasında ikinci oxunuşda "Media haqqında" qanun layihəsinə baxılıb. Milli Məclisin sədri Sahibə Qafarova bildirib ki, qanun layihəsinin müzakirəsi ilə bağlı Milli Televiziya və Radio Şurasının sədri İsmət Səttarov, Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov, Mətbuat Şurasının sədri Əflatun Amaşov iclasda iştirak edirlər.

Qanun layihəsini ikinci oxunuşda təqdim edən İnsan hüquqları komitəsinin sədri Zahid Oruc sənədin ötən müddət ərzində müzakirələri zamanı səsləndirilən fikirlərə münasibət bildirib, sualları cavablandırıb.

Diqqətə çatdırılıb ki, müzakirələrdə ifadə edilən fikirləri iki qrupa bölmək olar. Bunların bir hissəsi dövlət media siyasətinin müxtəlif aspektlərinə, onun praktiki tərəfinə yönəlib, müəyyən bir qismi isə dəqiqləşdirici xarakter daşıyır. Komitə sədri deyib ki, qanun media sahəsində islahatların birinci mərhələsini təşkil edir. Təkmil normativ-hüquqi bazanın yaradılması media strategiyası və konsepsiyasının da qəbuluna kömək edəcək. O, media subyektlərinə maliyyə dəstəyinin göstərilməsi, bununla bağlı beynəlxalq təcrübədə olan nümunələr, mediada reklam qaydaları, sosial medianın fəaliyyəti, televiziyalarda ixtisaslı kadr seçimi, yaradıcılıq səviyyəsinin yüksəldilməsi, xarici dil bilən professional jurnalistlərin hazırlanması məsələlərinə toxunub.

Komitə sədri onu da bildirib ki, hazırda qüvvədə olan qanun ancaq əmək müqaviləsi ilə işləyən ştatlı və ştatdankənar müxbirlərə jurnalist statusunu şamil edir. Yeni layihə isə həm əmək müqaviləsi, həm də mülki hüquq müqaviləsi ilə işləyən jurnalistləri əhatə edir. Heç bir müqavilə bağlamadan, yazılarını özünün veb-saytında yayımlayan şəxs isə artıq onlayn-media subyekti kimi çıxış edir və onunla qurulan münasibətlər bu çərçivədə tənzimlənəcək. Blogerlərin fəaliyyətinin tənzimlənməsinə gəlincə, qanun layihəsində bununla bağlı və ümumiyyətlə, sosial şəbəkələrə aid müddəalar yer almayıb. Layihə ancaq peşəkar jurnalistika səviyyəsində olan münasibətləri əhatə edir. Hadisələrin və faktların qərəzsiz və obyektiv şərh olunması tələbi ilə bağlı məsələyə aydınlıq gətirilərək qeyd olunub ki, sənəddə göstərilən normalar jurnalistin şərhinə deyil, mediada dərc olunan, yayımlanan informasiyalara olan tələbləri nəzərdə tutur. Jurnalistin təhsili ilə bağlı sualla əlaqədar qeyd edilib ki, layihədə ali təhsil tələbi qoyulmayıb.

Zahid Oruc çıxışında siyasi partiyaların və dövlət orqanlarının media subyekti yaratmaq hüququ ilə əlaqədar layihədə göstərilən normaları şərh edib. Həmçinin qeyd edib ki, medianın bütün yaş kateqoriyalarına nüfuz etməsini nəzərə alaraq, ictimai mənəviyyatın qorunması üçün sənəddə müvafiq normalar da müəyyənləşdirilir.

Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli çıxış edərək layihə ətrafında bir neçə dəfə müzakirələrin aparıldığını söyləyib, səsləndirilən cavabların məqbul olduğunu deyib.

Millət vəkilləri layihə barədə fikirlərini, qeyd və təkliflərini səsləndiriblər. Müzakirələrdən sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

# Azad olunmuş ərazilərin memarlıq görkəmini bərpa edəcəyik

## Azərbaycan Memarlar İttifaqının 85 illiyi qeyd olunub

Beynəlxalq Muğam Mərkəzində dekabrın 17-də Azərbaycan Memarlar İttifaqının (AMİ) 85 illiyinə həsr olunmuş tədbir keçirilib. İştirakçılar əvvəlcə foyedə "Müasir Azərbaycan memarlığı" adlı sərgi ilə tanış olublar.

Tədbir Dövlət himninin səsləndirilməsi ilə başlayıb. Ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Memarlar İttifaqı İdarə Heyətinin sədri, professor Elbay Qasımzadə çıxış edərək qurumun tarixindən danışıb. Bildirib ki, 1934-cü ildə Azərbaycan memarlarının birinci qurultayını keçirmək üçün təşkilat komitəsi yaradılıb və 1936-cı ilin mart ayında ittifaqın təsis qurultayı baş tutub.

Ötən 85 ildə Azərbaycan memarlarının layihələri üzrə bir çox möhtəşəm tikililərin yaradıldığını söyləyən ittifaqın sədri qeyd edib ki, bu memarlıq nümunələri yalnız respublikamızda deyil, dünyada da tanınır: "Keçmiş SSRİ məkanında kifayət qədər nüfuzlu mütəxəssislər kimi ad qazanan Azərbaycan memarları arasında uzun müddət Memarlar İttifaqına rəhbərlik edən akademik Mikayıl Hüseynovun xidmətləri əvəzsizdir. O dövrdə Azərbaycandan memar ixtisaslı yeganə Sosialist Əməyi Qəhrəmanı da məhz Mikayıl Hüseynov olub. Bu həm də Azərbaycan memarlığının beynəlxalq səviyyədə nüfuzunun göstəricisidir. Bu gün bizim istedadlı, gənc memarlarımız var və onlar bu sənəti bizdən sonra da yaşadacaqlar".

Elbay Qasımzadə diqqətə çatdırıb ki, müasir dövrdə Azərbaycan memarlığı və şəhərsalması dövlət siyasətinin



ayrılmaz bir hissəsi olmaqla Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir: "Müstəqil Azərbaycan iqtisadi cəhətdən çox inkişaf edib. Ötən müddət ərzində paytaxtımızın siması çox dəyişib. Yeni parklar salınır, binalar tikilir, şəhər gündən-günə gözəlləşir. Bütün bunlar Prezident İlham Əliyevin diqqət və qayğısının göstəricisidir".

Yubiley tədbirində çıxış edən mədəniyyət naziri Anar Kərimov Prezident İlham Əliyevin 17 dekabr tarixli sərəncamı ilə dövlət təltiflərinə layiq görülmüş memarları təbrik edərək onlara yeni yaradıcılıq nailiyyətləri arzulayıb.

Nazir bildirib ki, memarlıq sənəti dünyanın inkişafını göstərən bir dəyərdir. Azərbaycan memarlıq sənətinin tarixi göstərir ki, ölkəmizdə inkişaf etmiş sivilizasiya mövcud olub. Memarın istedadı, yaradıcılıq qabiliyyəti olmazsa, yaşadığımız məkan gözəl və rəngarəng ola bilməz. Zəngin inkişaf yolu keçən Azərbaycan memarlıq sənəti bu gün də uğurla davam edir. Ulu öndər Heydər Əliyev memarlarımıza böyük diqqət göstərirdi. Bu gün bu ənənələr Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən davam etdirilir. Bu gün Azərbaycan Memarlar İttifaqı beynəlxalq memarlar ailəsinin fəal üzvlərindən biridir.

Torpaqlarımızın otuz ilə yaxın davam edən işğalı zamanı ermənilər tərəfindən memarlıq nümunələrimizin də yerlə yeksan edildiyini, vandalizmə məruz qaldığını bildirən Anar Kərimov deyib: "İndi qarşımızda bu memarlıq nümunələrini bərpa etmək kimi mühüm vəzifələr durur. İstərdik ki, gənc memarlar bu işdə fəal iştirak etsinlər. Prezident İlham Əliyevin göstərişi ilə bu işdə həm Memarlar İttifaqı, həm də Mədəniyyət Nazirliyi olaraq bütün fəaliyyətimizi səfərbər edərək, işğaldan azad edilmiş ərazilərimizin memarlıq görkəmini özünə qaytarmaqla əzəli yurd yerlərimizin inkişafını təmin edəcəyik".

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov bildirib ki, Azərbaycan memarlıq məktəbinin zəngin tarixi var. Ötən əsrin 30-cu illərindən fəaliyyət göstərən Memarlar İttifaqı Bakı şəhərinin idarəetmə orqanları ilə sıx



əməkdaşlıq edib. Hazırda memarlarımız şəhərimizin gözəlləşməsində yaxından iştirak edir. Qeyd olunub ki, bu gün memarların bir qrupunun təltif edilməsi Prezidentin bu sahəyə diqqətinin bariz nümunəsidir.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev, Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev, Fövqəladə Hallar Nazirliyi Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin rəis müavini, Əməkdar memar Elxan Əsədov, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi İdarə Heyətinin sədri Əsgər Ələkbərov və digər çıxış edənlər yubiley münasibətilə təbriklərini çatdırıb, milli memarlığın inkişafına töhfələr vermiş insanlara gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.

Mərasimdə bir sıra qurumların Azərbaycan Memarlar İttifaqına ünvanlandığı təbrik məktubları oxunub. Beynəlxalq Memarlar İttifaqının prezidenti Tomas Vonierin Azərbaycan Memarlar İttifaqına təbriki videoformatda təqdim olunub.

Sonra bir qrup memara ittifaqın akademik Mikayıl Hüseynov adına xatirə medalı, "Ustad memar" peşəkarlıq şəhadətnaməsi, AMİ-nin fəxri fərmanı təqdim edilib. Həmçinin V Bakı Beynəlxalq Memarlıq Müsabiqəsinin və Gənc memarların və tələbələrin işlərindən ibarət VII Respublika müsabiqəsinin qaliblərinə mükafatlar verilib.

Tədbir konsert proqramı ilə davam edib. Qonaqlara AMİ-nin 85 illiyi ilə bağlı Azərbaycan və ingilis dillərində nəşr edilmiş kitab-albom hədiyyə olunub.

**LALƏ**



# Köhnə İskəndərə yeni namə

Silsilə tədbirlər, teatr tamaşaları, sənət, səhnə aksiyaları ilə zəngin olan "Nizami Gəncəvi İli" çərçivəsində növbəti layihə də uğurla gerçəkləşdi.

Dekabrın 18-də Mədəniyyət Nazirliyinin dəstəyi və "Azer-Gold" Qapalı Səhmdar Cəmiyyətinin baş sponsorluğu ilə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında "İskəndərə yeni namə" tamaşasının premyerası da Nizami soraqlı ilin sənət tədbirlərindən idi.

Mədəniyyət naziri Anar Kərimov, nazirliyin əməkdaşları, digər rəsmilər, mədəniyyət və incəsənət xadimlərinin izlədiyi tamaşa maraqla qarşılandı.

Fərqli üslubda hazırlanan səhnə işinin quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə, quruluşçu rəssamı Əməkdar mədəniyyət işçisi İlham Elxanoğlu, işıq üzrə rəssamı Rafael Həsənov, rejissor assistenti Nihad Qulamzadədir.

Yazıçı-ssenarist İlqar Fəhminin ədəbi əsəri, dünya və əbədiyyət arasında qalan insan haqqında ilkin təfsiri əsasında ərsəyə gələn tamaşanın səhnə plastikası Xalq artisti Pərviz Məmmədrzayevə, səhnə qrafikası Binyamin Sailova məxsusdur. Səhnə əsərində Xalq artisti Nurəddin Mehdixanlı (Hörmüz), Əməkdar artistlər Şövqi Hüseynov (Xızır), Elşən Rüstəmov (Əflatun), Kəmalə Müzəffər (yaşlı Rövşənək), İlqar Cahangir (İskəndərus), aktyorlar Ziya Ağa (İskəndər), Fəridə Şahbazova (gənc Rövşənək), Rüstəm Rüstəmov (Ərəstun), Vüsal Mustafayev (Dəğyənus), Elçin Əfəndi (Antiqon) və Sənan Kazımlı (Vəliəhd Sokrat) çıxış ediblər.

Böyük fatehin "bu dünyada cismən ölümlü, ruhən ölümsüz insanlar var olduğu üçün yaşamaq gözəldir" fikrini təkrar edən layihə ümumilikdə Nizami irsinin teatr sənəti vasitəsilə retranslyasiyasını hədəfləyir. Layihənin əsas məqsədi Nizami Gəncəvinin hər hansı əsərini səhnəyə gətirmək yox, Nizami ruhunu, Nizami fəlsəfəsini müasir sənət düşüncəsi müstəvisində aktuallaşdırmaqdır. Ssenari "İskəndərnamə" poemasının motivləri əsasında hazırlansa da, əslində, tamaşa Nizami əsərinin təxəyyüldə davamıdır. Bu mənada poemadakı hadisələr xətti alternativ istiqamətdə davam etdirilir. Bəlli olduğu kimi, invariantda İskəndər Zülqərneynə dirilik suyunu içmək qismət olmur, Xızır dirilik suyunu içib qiyamətə qədər qeybə çəkilir. İskəndər isə dünyadan köçür...

Tamaşada isə Makedoniyalı İskəndər dirilik suyunu Xızırın qanı vasitəsilə içir və beləcə, özünün əbədi yaşamaq haqqını da qanla alır. Elə hadisələr də bundan sonra başlayır və İskəndər qalan bütün ömrünü ölümsüzlüyü ilə mübarizə aparan insanlarla mücadiləyə həsr edir, faciələr, xəyanətlər, sui-qəsdlər, qanlı olaylar onu tərk etmir.

Nəticədə vahid dövlət ideyasının, Yer kürəsini bir qütbdən idarə etmək iddiasının müəllifi ölümü yalvararaq çağırır və ən yaxınının qəsdi ilə ölümü dadır. Tamaşanın qayəsinə görə, insan əbədi həyatın yükünü çəkə bilməz və mütləq sonu ilə barışmalıdır. Çünki insan Tanrı deyil və belə olan təqdirdə o, daim ölümünü gözləyərək yaşamalıdır...

Tamaşa haqqında ətraflı növbəti sayımızda.

**HƏMİDƏ**

# "Mədəni yenilənmə"də yadda qalanlar...

*əvvəli səh. 1-də*

Kitabda musiqişünasların ansambl haqqında vaxtilə yazdıqları məqalələr də yer alıb. 1995-2005-ci illərdə fəaliyyət göstərmiş "SoNoR" müasir musiqi ansamblının fəaliyyətindən bəhs edən toplu ansambl ilə çalışmış müxtəlif ifaçı və bəstəkarlar, musiqişünasların xatirələri, müxtəlif məqalə və tarixi-faktoloji materialları əhatə edir. Toplu haqqında Xalq artisti Fərəc Qarayev, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru Zümrüd Dadaşzadə, Xalq artisti, bəstəkar, "Bakusitk Caz" qrupunun rəhbəri, Xalq artisti Salman Qəmbərov, BMA-nın baş müəllimi Aliyə Məmmədova, Əməkdar artist, opera müğənnisi, "SoNoR" ansamblının aparıcı solistlərindən olmuş Fəridə Məmmədova, toplunun tərtibçi-müəllifi Samir Mirzəyev, Dövlət Yuğ Teatrının aktyoru, Xalq artisti Vidadi Həsənov, "Qanun" nəşriyyatının direktoru Şahbaz Xuduoğlu, ön sözün müəllifi, Mədəniyyət Nazirliyinin əməkdaşı, musiqişünas, sənətşünaslıq üzrə fəlsəfə doktoru Turan Məmmədəliyeva çıxış edərək fikirlərini bölüşüblər.

Tədbirə onlayn formatda qoşulan ansamblın bədii rəhbəri olmuş bəstəkar Elmir Mirzəyev və "SoNoR" ansamblının direktoru kimi çalışmış musiqişünas Afət Məmmədova, eləcə də ukraynalı bəstəkar və dirijor, ansambl ilə mütəmadi əməkdaşlıq etmiş Vladimir Runçak da nəşrlə bağlı danışıblar.

Təqdimat mərasiminin sonunda "SoNoR" ansamblının ifasında Berlin Müasir Musiqi Festivalında (2001) ifa edilmiş Fərəc Qarayevin "Cancion de cuna" əsərinin videoyazısı nümayiş etdirilib.

Layihə çərçivəsində dekabrın 16-da Musiqi Mədəniyyəti Dövlət Muzeyində musiqişünas Rauf Fərhadovun iştirakı ilə "Postmodernizmdən total sintezə doğru" mövzusunda mühazirə-diskussiya təşkil olunub. Musiqişünas XX-XXI əsrlərin ümumi mədəniyyətində mühüm dönüşlər yaratmış başlıca təmayüllər kimi totalizm və postmodernizmin başlıca prinsiplərini qeyd edib, müxtəlif dövrlərin musiqi nümunələrini – Orando Lassonun "Əks-səda" madriqalı, Bernd Alois Simmermanın "Kral Ubünün süfrə ziyafəti üçün musiqi", Alfred Şnitkenin "Şüşə harmonika" cizgi filminə bəstələdiyi musiqini, Fausto Romitelli, Mixael Bayl, Marko Nikodiyeviç, Liza Lim və digər müəlliflərin əsərlərini illüstrə qismində səsləndirib. Müasir musiqi və düşüncə üçün əsl informasiya bazası olan mühazirə maraqlı diskussiyalarla davam edib.



***

Dekabrın 16-da "Mədəni yenilənmə" layihəsinin iştirakçıları ilə Mədəniyyət Nazirliyində də görüşlər keçirilib.

Nazir Anar Kərimovla görüş zamanı Azərbaycan mədəniyyətinin ölkədaxili və beynəlxalq səviyyədə daha səmərəli, davamlı və dolğun şəkildə tanıdılması, bu istiqamətdə tədbir və layihələrin həyata keçirilməsi, eləcə də Azərbaycan mədəni irsinin xarici mediada təbliğ edilməsi məsələləri ətraflı müzakirə edilib. Anar Kərimov nazirliyin bu istiqamətlərdə aparılacaq işlərə dəstək verməyə hər zaman hazır olduğunu vurğulayıb.

Samir Mirzəyev bu yaxınlarda nəşr olunmuş və 1995-2005-ci illərdə fəaliyyət göstərmiş ansambldan bəhs edən "SoNoR: İki minilliyin arasında" kitabını nazirə hədiyyə edib.

Nazirin birinci müavini Elnur Əliyev də layihə iştirakçıları ilə görüşüb. Elnur Əliyev qonaqlara nazirliyin mədəniyyət anlayışına ümumi baxışı və bu baxışdan irəli gələn yeni strategiyası, milli mədəniyyətimizin inkişafı və təbliği istiqamətində rəhbər tutduğu prinsiplər barədə məlumat verib. Zəngin və böyük tarixi köklərə malik Azərbaycan mədəniyyəti və incəsənətinin mütəmadi təbliğində xaricdə yaşayan həmvətənlərimizin xüsusi rol oynadığı vurğulanıb.

***

Dekabrın 17-də YARAT-ın səhnəsində Antalya Dövlət Konservatoriyasının dosenti Samir Mirzəyevin "Sinesteziya fenomeni və Skryabin" mövzusunda mühazirəsi maraqla qarşılanıb.

Layihə çərçivəsində Azərbaycan Dövlət Akademik Filarmoniyasında 16 dekabrda "Nurlanmış gecə" kamera konserti, 17 dekabrda "Nostalji" simfonik konserti də təşkil edilib.

Proqramda Xalq artisti Fərəc Qarayevin üç tələbəsinin də əsərləri təqdim edilib. Bəstəkarın "Elitist (Moz)art" əsəri, Əli Əlizadənin "Serenada dolore", Elmir Mirzəyevin "Zamandan qaçış", Aliyə Məmmədovanın "Xəyal" simfoniyasına dirijorluğu Əməkdar artist Fuad İbrahimov edib. Konsertdə səslənən musiqinin təzadlı ardıcıllığı diqqətsiz qalmayıb.

Əməkdar artist Fəridə Məmmədovanın (soprano) solist kimi çıxışı isə hər zamankı kimi alqışa layiq olub. Bu konsert "Mədəni yenilənmə" layihəsinin növbəti silsilə tədbirinin yekunu idi. Professor Zümrüd Dadaşzadə layihə ilə bağlı fikirlərini bölüşərək dedi: "Uğurlu görüş, diskussiya və konsertlərə görə Fərəc müəllimi təbrik edirəm. Bu gün o özünə görə yox, tələbələrinə görə sevinirdi. "Nə yaxşı onların əsərləri səsləndi", - dedi mənə. Fərəc Qarayevlə görüşlər unudulmaz idi. Ondan öyrənmək və yenə də öyrənmək olar. Bəzən onunla razılaşmadığım anlar da olub. Amma əsas sənətdir".

***

Sonda bir məsələni qeyd etmək istərdik. "Mədəni yenilənmə" layihəsinin əksər görüş, konsert və təqdimatlarında iştirak zamanı, təəssüf ki, gənclərimizi görə bilmədik. Fərəc Qarayev və Rauf Fərhadov kimi mütəxəssisləri tez-tez görmək mümkün deyil. Belə insanlarla görüşmək, necə deyərlər, hələm-hələm ələ düşmür. Bəs, görəsən, niyə bu görüşlərə gənclər deyil, sənətdə artıq öz sözünü demiş sənətkarlar qatılmışdı?! Halbuki gənc nəsil musiqişünas və bəstəkarlar bu seminarlardan daha çox faydalana bilərdi...

**L.AZƏRİ**

# "İrs/Erbe" jurnalının növbəti sayı çapdan çıxıb

"İrs" beynəlxalq jurnalının alman dilində ("İrs/Erbe") nəşr olunan yeni nömrəsinin əsas mövzusu Qarabağdır. Baş redaktor Musa Mərcanlı "Təcavüz hüquqi vəzifə kimi" adlı giriş məqaləsində SSRİ-nin dağılma ərəfəsində başlanan yeni Qarabağ münaqişəsinin tarixinə nəzər salır, Ermənistanın Azərbaycana qarşı təcavüzünün nəticələrini diqqətə çatdırır, Azərbaycanın otuz ilə yaxın davam etmiş işğala son qoyan Qələbəsindən bəhs edir.




Nəşrdə mədəniyyət naziri Anar Kərimovun "Qarabağın azad edilməsi Azərbaycan mədəniyyətini yenidən birləşdirir" başlıqlı məqaləsi də dərc olunub. Məqalədə Qarabağın keçmişindən, buradakı qədim alban xristian mədəniyyətinə aid abidələrdən bəhs edilir, diyarın yeni tarixindən söz açılır. Pənahəli xanın əsasını qoyduğu Qarabağ xanlığının, Şuşa şəhərinin, Qarabağda həmin dövrdə tikilmiş tarixi abidələrin, burada yaranmış ədəbiyyat və musiqi nümunələrinin Azərbaycan mədəniyyətində xüsusi yeri vurğulanır. Qeyd olunur ki, Qarabağın azad edilməsi ilə Azərbaycanın bu qədim diyarına mədəniyyət yenidən qayıdır, Azərbaycanın ərazisi kimi mədəniyyəti də bütövləşir. Bunun sayəsində də Azərbaycan müstəqilliyini əldə etdikdən sonra ilk dəfə olaraq dünyaya öz mədəniyyətini bütövlükdə təqdim etmək imkanı qazanır. 30 illik erməni işğalı dövründə dağıdılmış mədəniyyət abidələrinin bərpası, bu ilin may ayında Şuşada yenidən "Xarıbülbül" musiqi festivalının keçirilməsi hər şeydən əvvəl bunu göstərir.

Potsdam Universitetinin professoru Fuhrmanın mərhum akademik Çingiz Qacar ilə birgə yazmış olduğu Nizami Gəncəviyə həsr edilmiş "880 ildən bəri canlıdır" məqaləsi bir daha böyük Azərbaycan şairi və mütəfəkkirinin həyatı, əsərləri və ölməz ideyaları haqqında məlumatları alman dilində oxucuların diqqətinə çatdırır.

"İrs/Erbe" jurnalının yeni buraxılışındakı digər məqalələrdə 44 günlük müharibə zamanı Azərbaycan şəhərlərinin dinc əhalisinin ermənilər tərəfindən raket zərbələrinə məruz qalması, azad edilmiş ərazilərin minalardan təmizlənməsi, aparılan quruculuq işləri, Füzulidə yeni hava limanının, Zəngilanda "ağıllı kənd"lərin salınmasından bəhs olunur.

№94 (1871)
22 dekabr 2021
www.medeniyyet.az

# Norveç ilə Azərbaycan arasında mədəni əməkdaşlıq müzakirə olunub

Mədəniyyət naziri Anar Kərimov dekabrın 17-də Norveç Krallığının ölkəmizə yeni təyin olunmuş səfiri Erlinq Şönsberqlə görüşüb.



Səfiri salamlayan nazir ona fəaliyyətində uğurlar arzulayıb. Ölkələrimiz arasında mədəni əməkdaşlıqdan söz açan Anar Kərimov mövcud əlaqələrin genişləndirilməsi üçün imkanların olduğunu vurğulayıb. İncəsənətin müxtəlif sahələri üzrə təcrübə mübadiləsinin önəmindən bəhs edən nazir Norveçin mədəni sənayelər, kino, musiqi sahələrində təcrübəsinin ölkəmiz üçün də əhəmiyyətli olduğunu deyib.

Prezident İlham Əliyev tərəfindən 2008-ci ildə irəli sürülən "Bakı Prosesi" təşəbbüsü çərçivəsində 2011-ci ildən ənənəvi keçirilən Dünya Mədəniyyətlərarası Dialoq Forumu barədə diplomata məlumat verən Anar Kərimov ölkəmizin yeni təşəbbüsü olan "Mədəniyyət naminə sülh" (Peace4Culture) qlobal kampaniyasından da söz açıb. Bildirib ki, kampaniya mədəni irsin qorunması, dinc və dayanıqlı sülhsevər cəmiyyətlərin qurulması, eləcə də sülhün əldə olunmasında mədəniyyətin rolu ilə yanaşı, mədəniyyətin inkişafında sülhün rolunun öyrənilməsi məqsədi daşıyır. Anar Kərimov Norveçi də bu qlobal çağırışa qoşulmağa dəvət edib.

Səmimi qəbula görə təşəkkür edən səfir Erlinq Şönsberq "Mədəniyyət naminə sülh" (Peace4Culture) qlobal çağırışına dərin marağını ifadə edib, bu çərçivədə əməkdaşlığın vacibliyindən danışıb. Vurğulayıb ki, mədəniyyət xalqları, ölkələri birləşdirən ən güclü vasitədir.

Görüş tərəfləri maraqlandıran bir sıra məsələlərin müzakirəsi ilə davam edib.

# "Xalçalarda yaşanan ömür"



Masallı Regional Mədəniyyət İdarəsi (RMİ) Masallı rayon Heydər Əliyev Mərkəzi və rayon Tarix-Diyarşünaslıq Muzeyində də Xalq rəssamı Kamil Əliyevin 100 illik yubileyi ilə bağlı tədbirlər keçirilib. Çıxış edənlər xalçaçı rəssamın ömür və sənət yolu haqqında fikirlərini bölüşüblər.

Lənkəran RMİ Astara rayon Heydər Əliyev Mərkəzində Azərbaycan xalça rəssamlığı sənətinin nümayəndəsi, Xalq rəssamı, professor Kamil Əliyevin (1921-2005) anadan olmasının 100 illik yubileyinə həsr olunmuş "Xalçalarda yaşanan ömür" mövzusunda tədbir keçirilib. Tədbirdə çıxış edən mərkəzin direktoru Kübra Səmədova Kamil Əliyevin öz yaradıcılığı ilə Azərbaycan xalça sənətinə böyük töhfələr bəxş etdiyini bildirib. Sonra tədbir iştirakçıları Heydər Əliyev Mərkəzi və Astara Dövlət Rəsm Qalereyasının birgə təşkil etdiyi sərgi ilə tanış olublar.

Xaçmaz RMİ Xaçmaz Xalça Muzeyində professor Kamil Əliyevin 100 illik yubileyinə həsr edilmiş tədbirdə Xaçmaz şəhər Uşaq incəsənət məktəbi Rəssamlıq şöbəsinin müəllim və şagirdlərinin əl işlərindən ibarət sərgi nümayiş etdirilib.

# Lənkəran teatrında Yeni il tamaşası



Lənkəran Dövlət Dram Teatrının kollektivi məktəbyaşlı tamaşaçılarını Yeni il ərəfəsində və bayram günlərində yeni səhnə əsəri ilə sevindirəcək. Teatrın aktyorları bu dəfə uşaqların görüşünə gənc rejissor Tərlan Abdullayevin müəllifi olduğu və quruluş verdiyi "Qar dənəcikləri" pyesinin tamaşası ilə gəlib.

Dekabrın 18-də premyerası keçirilən səhnə əsərində Yeni ili qarşılamağa hazırlaşan balaca nağıl qəhrəmanlarının başına gələn əhvalatlardan söz açılır.

Tamaşanın quruluşçu rəssamı Rza Rzazadə, bəstəkarı Teymur Gözəlov, səs rejissoru Fərahim Fərəcovdur. Rolları Allahverən Babayev, Gülər Kərimli, Rauf Zeynalov, Şəbnəm Hüseynova, Emil Rzayev, Aysel Cahangirova, Vəfa Hacızadə, Teymur Hacızadə və Amil İbrahimi ifa edirlər.

# "Nizami ili"nin layihələri davam edir

Lənkəran RMİ Astara rayon Mədəniyyət Mərkəzində Nizami Gəncəvinin anadan olmasının 880 illiyinə həsr olunmuş ümumrayon tədbiri keçirilib. Kitab və rəsm sərgisi ilə tanışlıqdan sonra Mədəniyyət Mərkəzi özfəaliyyət kollektivinin ifasında böyük şairin əsərlərinin motivləri əsasında hazırlanmış ədəbi-bədii kompozisiya göstərilib.



Sabirabad, Kürdəmir, İsmayıllı, Şəki və Gəncə regional mədəniyyət idarələrinin birgə təşkilatçılığı ilə "Nizami ili" münasibətilə "Xəmsə" yolu" layihəsi həyata keçirilir. Layihənin ilk tədbiri Sabirabad rayon Mədəniyyət Mərkəzində gerçəkləşib. Tədbirdə Nizami Gəncəvi "Xəmsə"si əsasında hazırlanan səhnəciklər təqdim olunub.

Ağstafa RMİ Qazax şəhər 1 nömrəli Uşaq musiqi məktəbi və Qazax Dövlət Rəsm Qalereyasının birgə təşkilatçılığı ilə "Nizaminin hikmət və nəsihətləri" adlı tədbir keçirilib. Tədbirdə musiqi məktəbinin şagirdləri tərəfindən hazırlanmış səhnəcik nümayiş etdirilib.

Bərdə RMİ Yevlax şəhər Mədəniyyət Mərkəzi və şəhər Yaradıcılıq evinin təşkilatçılığı ilə "Gecə xəlvətcə bizə sevgili yar gəlmiş idi" adlı teatrlaşdırılmış ədəbi-bədii, musiqili kompozisiya nümayiş etdirilib.

F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasının təşkilatçılığı ilə Nizami Gəncəvinin 880 illiyinə həsr edilmiş konsert təşkil olunub. Konsert proqramında Gəncə Dövlət Filarmoniyasının Kamera orkestri çıxış edib.



Ağcabədi RMİ Ağcabədi rayon Qarabağ Muğam Mərkəzində Nizami Gəncəvinin 880 illik yubileyinə həsr edilmiş tədbir keçirilib.

Tədbirdə mərkəzin səs müəllimlərinin ifasında "Yenə tövbə evimi eşq xərab etmədədir" və "Gecə xəlvətcə bizə sevgili yar gəlmiş idi" qəzəlləri səsləndirilib.

Biləsuvar RMİ Salyan rayon Mədəniyyət Mərkəzi, 2 saylı şəhər klubu və Kürqaraqaşlı Diyarşünaslıq evinin təşkilatçılığı ilə "Nizami ili" münasibətilə mədəniyyət müəssisələri əməkdaşlarının əl işlərindən ibarət dekorativ-tətbiqi sənət sərgisi keçirilib.



İsmayıllı RMİ İsmayıllı rayon Heydər Əliyev adına Mədəniyyət Mərkəzində "Nizami Gəncəvi-880" adlı tədbir keçirilib. İdarə rəisi Elçin Nəcəfov, idarə və müəssisələrin əməkdaşları və rayon ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbirdə Nizami yaradıcılığına həsr olunmuş ədəbi-bədii kompozisiya təqdim olunub.

# Bölgələrdə müxtəlif səpkili tədbirlər




Sumqayıt RMİ Abşeron rayon Ceyranbatan qəsəbə Uşaq incəsənət məktəbində Aşıq Ələsgərin 200 illik yubileyinə həsr edilmiş tədbir keçirilib. Tədbirdə məktəbin xalq çalğı alətləri şöbəsinin müəllim və şagirdləri tərəfindən ustad sənətkarın sözlərinə bəstələnmiş mahnılar, dastan və saz havaları səsləndirilib.

Sumqayıt RMİ və ŞİH-nin birgə təşkilatçılığı ilə Sumqayıt Dövlət Dram Teatrında Vətən müharibəsində Zəfərimizə həsr olunan "Missiya" adlı tamaşa nümayiş etdirilib. Tamaşadan sonra sumqayıtlı Vətən müharibəsi şəhidlərinin övladlarına Yeni il hədiyyələri və geyimlər təqdim olunub.

Abşeron rayon Xırdalan şəhər 11 illik Uşaq musiqi məktəbinin kollektivi Ağdaş RMİ Arif Məmmədov adına Göyçay şəhər Uşaq musiqi məktəbinin qonağı olub. Tədbirdə hər iki məktəbin müəllim və şagirdlərinin ifasında klassik musiqilər, bəstəkar və xalq mahnıları, muğamlardan ibarət maraqlı konsert proqramı təqdim olunub.

Xaçmaz RMİ Qusar Dövlət Rəsm Qalereyasında Qələbəmizə həsr olunan "Rəngin harmoniyası – sənət mübadiləsi" adlı sərgi təşkil edilib. Sərgidə Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Ordumuzun göstərdiyi qəhrəmanlıqları əks etdirən 44 rəsm əsəri nümayiş etdirilib.

Şəki RMİ M.F.Axundzadə adına Şəki şəhər Mədəniyyət Mərkəzində Fövqəladə Hallar Nazirliyinin yaradılmasının 16 illiyi münasibətilə təşkil edilən konsertdə vətənpərvər ruhlu mahnılar ifa olunub, şeirlər səsləndirilib.

Masallı RMİ Masallı Xalq teatrında narkomaniya və erkən nikahlar mövzusuna həsr olunmuş "Bir ailənin faciəsi" tamaşası səhnələşdirilib. Ssenari müəllifi jurnalist Əlihüseyn Şükürov olan səhnə işi Masallı Dövlət Regional Kolleci, rayon Gənclər və İdman İdarəsi, Gənclər evi, Polis Şöbəsi və Xalq teatrının birgə təşəbbüsü və iştirakı ilə hazırlanıb.



Ağstafa RMİ-nin nəzdində "Aveydağ" folklor ansamblı yaradılıb. Regional idarənin tabeliyində fəaliyyət göstərən mədəniyyət müəssisələrinin əməkdaşlarından ibarət ansamblın repertuarını qədim və milli alətlərdə xalq mahnıları təşkil edəcək. Ağstafa rayon Mədəniyyət Mərkəzinin nəzdindəki Xalq teatrı isə "Qış nağılı" tamaşasını təqdim edib. Uşaqların sevimlisi Şaxta babanın, Qar qızın maraqlı söhbətləri, klounların müxtəlif oyun nömrələri balaca tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

Gəncə RMİ Gəncə şəhər Mədəniyyət Mərkəzində "Saz ömrü qədərdir Ələsgər ömrü" adlı tədbir təşkil olunub.



Bərdə RMİ Bərdə şəhər 1 nömrəli Uşaq incəsənət məktəbinin yaranmasının 60 illik yubileyi ilə bağlı tədbir keçirilib. Regional idarənin rəisi İlyas Hacıyev, Bərdə, Tərtər rayon, Yevlax və Mingəçevir şəhərindən rəhbər işçilər, şəhid ailələri, məktəbin yetirmələri və musiqisevərlərin iştirak etdiyi tədbirdə tədris ocağının keçdiyi yola həsr olunmuş videoçarx nümayiş etdirilib və qazanılan nailiyyətlər barədə məlumat verilib. Mingəçevir şəhər şəhid F.Qasımov adına Uşaq incəsənət məktəbində görkəmli bəstəkar, Xalq artisti, Dövlət mükafatı laureatı Tofiq Quliyevə (1917-2000) həsr olunan tədbir keçirilib. Tədbirdə bəstəkarın ömür yolundan və yaradıcılığından bəhs edən qısametrajlı sənədli film nümayiş etdirilib. Konsert proqramında məktəbin müəllimləri tərəfindən bəstəkarın mahnıları, filmlərə yazdığı musiqilər ifa olunub.

**Hazırladı: N.MƏMMƏDLİ**

# "Keşikçidağ"da aparılan tədqiqatların 10 illiyinə həsr olunmuş konfrans

Ağstafa rayon Heydər Əliyev Mərkəzində Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin təşəbbüsü və Ağstafa Rayon İcra Hakimiyyətinin dəstəyi ilə "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğunda aparılmış elmi tədqiqatların 10 illiyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib.

Konfrans zamanı Qazax-Ağstafa bölgəsində, eyni zamanda qoruq ərazisində arxeoloji elmi tədqiqat işləri aparmış alimlər məruzələrlə çıxış ediblər. Məruzələrdə qeyd olunub ki, indiyə kimi aparılan arxeoloji tədqiqatlar nəticəsində qoruq ərazisində Daş dövründən başlayaraq Orta əsrlərə qədər çox sayda tarixi, memarlıq, arxeoloji və dini abidələr mövcuddur.

Diqqətə çatdırılıb ki, "Keşikçidağ" qoruğu ərazisində 2009-cu ildən başlayaraq aparılmış arxeoloji tədqiqat və qazıntı işlərinin nəticəsi olaraq yazılan məqalələr 50-dən çox yerli və beynəlxalq konfransda təqdim olunub.

Konfrans çərçivəsində elmi tədqiqatların 10 illiyinə həsr olunmuş sərgi də təşkil olunub. Sərgidə qoruq ərazisində aparılmış arxeoloji qazıntılar nəticəsində əldə olunmuş Xocalı-Gədəbəy arxeoloji mədəniyyəti üçün xarakterik olan maddi mədəniyyət nümunələri nümayiş etdirilib.

Konfrans iştirakçıları üçün Qazax rayonunda yerləşən Göyəzən dağına tur da təşkil olunub.

# Aşıq Ələsgər Səməd Vurğunun Ev-Muzeyində yad edilib

Aşıq Ələsgərin anadan olmasının 200 illiyi münasibətilə dekabrın 16-da Səməd Vurğunun Ev-Muzeyində tədbir keçirilib.

"Mirvarid Dilbazi Poeziya Məclisi" İctimai Birliyi ilə birgə təşkil olunan tədbiri muzeyin direktoru Nüşabə Babayeva-Vəkilova açaraq qonaqları salamlayıb. Aşıq Ələsgərin yaradıcılığının Azərbaycan ədəbiyyatında, saz-söz sənətində xüsusi yeri olduğunu vurğulayan direktor Xalq şairi Səməd Vurğunun dediyi sözləri diqqətə çatdırıb: "Hansı mövzuya əl atıram, hansı daşı qaldırıram, altında Dədə Ələsgərdən bir nişanə görürəm".

"Mirvarid Dilbazi Poeziya Məclisi" İctimai Birliyinin sədri Güllü Eldar Tomarlı çıxış edərək Dədə Ələsgərin Azərbaycan poeziyasının ən böyük nümayəndələrindən biri olduğunu vurğulayıb.

"Dədə Ələsgər Ocağı" İctimai Birliyinin sədri Xətai Ələsgər də ustadın həyat və yaradıcılığından söz açıb, tədbirin təşkilinə görə sənətkarın nəsli adından minnətdarlığını bildirib. O, ev-muzeyə Aşıq Ələsgərin təsviri olan rəsmi hədiyyə edib.

Tədbirdə "Aşıq Pəri Məclisi"nin rəhbəri Pərvanə Zəngəzurlu, aşıq Ramin, şair Südabə İrəvanlı, aşıq Gözəl Kəlbəcərli, şairə Aysel Kərim, Tərxanım Müseyibqızı Göyçəli, Nizami Qərib və başqaları çıxış ediblər. Aşıq Ələsgərin şeirləri, saz havaları səsləndirilib.

# Qafqaz Albaniyasına aid arxeoloji abidə aşkarlanıb

## "Avey" qoruğunun Göyəzən filialı ərazisində tədqiqatlar



Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin tabeliyində fəaliyyət göstərən "Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğunun Göyəzən filialı ərazisində aparılan kəşfiyyat xarakterli arxeoloji tədqiqatlar yekunlaşıb. Qazıntılar AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun əməkdaşı, arxeoloq Pərviz Qasımovun rəhbərliyi ilə həyata keçirilib.

Göyəzən dağında yer səthindən təqribən 400 metr hündürlükdə qaya parçalarından inşa edilmiş yeddibürclü Göyəzən qalası tədqiq edilib. Həmçinin Göyəzən dağının şimal-qərb ətəyində gətirilmə sal və qaya parçalarının olduğu ərazidə arxeoloji qazıntılar aparılıb.

Tədqiqat işləri nəticəsində məlum olub ki, qalanın bürclərinin diametri 6, mövcud hissələri isə 4 metr hündürlüyə malikdir. Cənub-şərqdən, yəni giriş tərəfdən şimal-qərbə tərəf uzanan divarın uzunluğu, beş bürc də daxil olmaqla 111, qalanın dağa dayaqlandığı arxa hissəsinin uzunluğu isə 99 metrdir.

Qalanın inşasının tarixini müəyyən etmək üçün giriş hissəsinin şimal bürcünün ətəyində şurf qoyulub. Qazıntılar zamanı müəyyən edilib ki, bürclərin ətrafları da qalanın tikintisində istifadə olunmuş səthi cilalanmamış qaya parçaları ilə doldurulub. Bu üsul Orta əsrlərdə bürc və divarların bərkidilməsində tətbiq edilib. Şurfdan çıxarılan qaya parçaları arasında Orta əsrlər dövrünə xas olan 200-dən çox yerli şirli və şirsiz keramika fraqmentləri aşkar edilib. Qala bölgənin islam dövrünə xas memarlıq üslubunda inşa edilib. Qalanın daha dəqiq tarixini müəyyən etmək üçün qazıntılar zamanı aşkar olunmuş nümunələr radio karbon analiz üçün götürülüb.

Qaladan 200 metr yüksəklikdə tam fərqli memarlıq üsulu ilə tikililər görünməkdədir. Ehtimal edilir ki, kub formalı cilalı daşlardan hörülmüş bu divarlar antik və ya erkən xristianlıq dövrü sakral xarakterli ibadətgahlar və sığınacaqlar olub. Bu tikililərə gedən cığırların təbii aşınması tədqiqatların aparılmasını çətinləşdirir.

Arxeoloji qazıntılar zamanı 12 torpaq qəbir aşkar edilib. Doqquz skeletdə əllərin sinə üzərində çiyinlərə doğru, çarpaz qoyulması, tabutun əlamətlərinin olmaması, şimal-qərbdən cənub-qərbə beli üzərində istiqamətlənmə Qafqaz Albaniyasının Orta əsrlər dəfn ənənəsini əks etdirir. Daha bir skelet sol çiyni üzərində, lakin xristian adəti üzrə dəfn edilib.

Daş qutu qəbirin aşkar edilməsi ərazidə Qafqaz albanlarının böyük bir xristian nekropolunun olmasını göstərir. Yaxşı cilalanmış daş qutu qəbirdə ilk Orta əsrlərdə alban xristianlığı üçün xas olan tərzdə dəfn qeydə alınıb. Dəfnlərdən tunc, mis və dəmirdən az sayda sırğalar, üzüklər, düymələr aşkar edilib.

Aparılmış qazıntılar Qafqaz Albaniyasına aid daha bir mühüm abidənin aşkar edilməsi ilə nəticələnib. 75 kvadratmetr olan qazıntı sahəsinin GPS koordinatları götürülüb, geodezik cihazlarla ölçmələr aparılıb.

Qeyd edək ki, "Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğunun Göyəzən filialında elmi-arxeoloji qazıntılar və payız məktəbi" layihəsi çərçivəsində qoruq ərazisinə turlar, məktəbli və tələbələr üçün ustad dərsləri də təşkil edilib.

# Milli-mənəvi ruhu ifadə edən səhnə nümunəsi

## "Leyli və Məcnun" dastan-tamaşası təqdim olundu





əvvəli səh. 1-də

AAB-nın sədri diqqətə çatdırdı ki, dastan uzun zamandan bəri mövcud olsa da, onun aşıqların repertuarında yer alması XX əsrin 40-cı illərinə təsadüf edir: "O vaxt Nizami Gəncəvinin 800 illiyi ilə bağlı işlər gedirdi və "Leyli və Məcnun" dastanı da aşıqların repertuarında yer almağa başladı. Həmin dövrdə bu dastanı mənimsəyən Aşıq Şəmşir 60-cı illərdə oğlu Qəmbər Şəmşiroğluna nümunə ilə bağlı bilgilər verir. Ondan sonra dastan yazıya alınır".

Məhərrəm Qasımlı diqqətə çatdırdı ki, Prezident İlham Əliyevin bu ilin "Nizami Gəncəvi İli" elan edilməsi ilə bağlı imzaladığı sərəncamdan sonra dastanın səhnələşdirilməsi qərarına gəldik: "Dastan-tamaşada ilk dəfə aktyorlar deyil, bütün rolları aşıqlar ifa edirlər. Musiqilər də aşıq havalarından ibarətdir. Burada aşıq sənətinin poetik çeşidlərindən ilk dəfə istifadə olunur. Bu mənada dastan-tamaşada ilklər çoxdur. Biz istəyirik ki, daha çox Azərbaycan milli-mənəvi ruhunu ifadə edən bir Məcnun və bir Leyli ortaya çıxmış olsun. Bu layihənin ərsəyə gəlməsində əziyyəti keçən hər kəsə təşəkkür edirəm".

Aşıqlar Birliyi sədrinin çıxışından sonra "Leyli və Məcnun" dastan-tamaşası nümayiş olundu. Tamaşada Qələndər Zeynalov (Ustad aşıq), Əməkdar mədəniyyət işçisi Samirə Əliyeva (Leyli), Əli Zeynalabdinov (Qeys), Kəmalə Qubadlı (Leylinin anası), Elməddin Məmmədli (Qeysin dostu Zeyd), Əməkdar mədəniyyət işçisi Solmaz Kosayeva (Qeysin anası), Şahniyar Əliyev (Qeysin atası), Nəbi Nağıyev (Leylinin atası), Eldar Bağırov (Səyyad), Elman Talıstanlı (Salam şahzadə), Əli Tapdıqoğlu (Nofəl pəhləvan) və saz ifaçıları Afil Bəxtiyarov, Ayxan Məlikov, Coşqun Əsgərov çıxış etdilər.

Aşıqlar həvalə olunmuş obrazları yüksək səviyyədə canlandırdılar. Onların şaqraq səslə ifaları tez-tez tamaşaçıların alqışları ilə mükafatlandırılırdı.

Qeyd edək ki, dastan-tamaşanın ssenari müəllifləri AAB-nin sədri, professor Məhərrəm Qasımlı və filologiya üzrə fəlsəfə doktoru Altay Məmmədli, quruluşçu rejissoru Əməkdar artist İnarə Babayevadır.

**Savalan FƏRƏCOV**

# "Öyrədərək öyrənirəm"

Mədəniyyət Nazirliyi "Öyrədərək öyrənirəm" adlı ustad dərsləri layihəsinə start verib.




Layihə çərçivəsində ilk yaradıcılıq görüşləri Xalq artisti, Prezidentin fərdi təqaüdçüsü, Azərbaycan Dövlət Pantomim Teatrının baş rejissoru Bəxtiyar Xanızadənin iştirakı ilə 2022-ci il yanvarın 10-14-də keçiriləcək.

Ustad dərslərinə peşəkarlardan, gənclərdən və tələbələrdən ibarət olan teatrşünaslar, aktyorlar, rejissorlar dəvətlidir.

Yanvarın 10-11-də keçiriləcək "Həqiqi hisslərlə yaşamaq azdır" adlı treninq aktyorlar, ayın 13-də keçiriləcək "Şekspirin Hamleti. Hamlet kimdir?" adlı treninq rejissorlar, yanvarın 14-də təşkil olunacaq "Teatr və mən – mən və teatr" adlı təlim isə teatrşünaslar üçün nəzərdə tutulub.

Ustad dərsləri Azərbaycan Dövlət Pantomim Teatrında (saat 11:00 –13:00-da) keçiriləcək.

Giriş qeydiyyatladır. Qeydiyyatdan keçmək üçün müraciət forması doldurulmalıdır.

https://forms.gle/GfQE5WEdebvfHX6n9
Müraciət üçün son tarix: 5 yanvar 2022-ci il
Əlaqə nömrəsi: (012) 493 06 03
E-mail: em.aliyev@culture.gov.az

# "Stalin" Rus Dram Teatrında səhnəyə çıxdı

Xalq yazıçısı Elçinin yeni dram əsəri – "Stalin" pyesi Azərbaycan Dövlət Akademik Rus Dram Teatrında tamaşaya qoyulub. Dekabrın 17-də tamaşanın premyerası olub.





"Stalin" tamaşası pandemiyaya görə uzun müddət davam etmiş məhdudiyyətlərdən sonra Akademik Rus Dram Teatrında premyerası keçirilən ilk səhnə əsəridir. Premyerada rəsmilər, mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

Stalin kimi ziddiyyətli, mürəkkəb xarakterli şəxsiyyətin otuz il nəhəng Sovet imperiyasına rəhbərlik etdiyi dövrdə həyata keçirdiyi repressiyalar zamanı milyonlarla insan məhv edilib, sürgünə, işgəncələrə məruz qalıb. Kim idi "yoldaş Stalin"? Qaniçən zalım, yoxsa ölkənin inkişafı və gələcəyi naminə çalışan böyük dövlət xadimi? Pyes bu sualları qarşıya qoyur və onlara cavab axtarır.

Əsərə Rusiyanın tanınmış rejissoru Kirill Zaborixin quruluş verib. Quruluşçu rəssam Tatyana Melnikova, bəstəkar Andrey Şoşkindir (Rusiya). Baş rolları Yaqub Zeynalov (Stalin), Marina Litvinenko (Olqa Aleksandrovskaya), Rüstəm Kərimov (Partiya kuratoru), Zaur İsgəndərov (Nazirlər kuratoru), Oleq Əmirbəyov (Təhlükəsizlik kuratoru), Zaur Terequlov (Ticarət kuratoru) ifa ediblər.

Xalq yazıçısı Elçinin dram əsərləri artıq çoxdan ölkəmizin sərhədlərini aşıb. Onun "Mənim sevimli dəlim", "Şekspir", "Qatil", "Teleskop", "Sənətkarın taleyi" və s. kimi pyesləri müxtəlif dillərə tərcümə edilərək Ankara və İstanbul, Nyu-York və London, Moskva və Sank-Peterburq, Roma və Seul və digər şəhərlərin teatrlarında müvəffəqiyyətlə tamaşaya qoyulub, tamaşaçıların rəğbətini qazanıb.

# Əməkdar artist Elşən Şirəliyev vəfat edib

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının aktyoru, Əməkdar artist Elşən Şirəliyev (Çarhanlı) dekabrın 20-də 59 yaşında vəfat edib.



Elşən Şıxəli oğlu Şirəliyev 1962-ci il oktyabrın 2-də Bakıda anadan olub. 1983-cü ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) Dram və kino aktyoru fakültəsini bitirib. Həmin il Sumqayıt Dövlət Dram Teatrında işə başlayıb. 1989-cu ildən Dövlət Gənclər Teatrında çalışıb.

2009-cu ildən Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının aktyoru idi. Bu teatrın səhnəsində 50-yə yaxın tamaşada rol alıb. Aktyor film və seriallardakı rolları ilə də tamaşaçılara yaxşı tanışdır.

2018-ci ildə "Əməkdar artist" fəxri adına, 2019 və 2020-ci illərdə Prezident mükafatına layiq görülmüşdü.

Allah rəhmət eləsin.

# Nəsibə Zeynalovanın 105 illiyinə həsr olunmuş ədəbi-bədii gecə

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə Mərdəkan Mədəniyyət Sarayında Azərbaycan teatrının korifeyi, Xalq artisti Nəsibə Zeynalovanın (1916-2004) 105 illik yubileyinə həsr olunmuş ədəbi-bədii gecə keçirilib.

Tədbirə qatılanlar öncə mədəniyyət ocağında fəaliyyət göstərən rəsm kursunun tələbəsi Rəna Cəfərovanın görkəmli sənətkara həsr etdiyi əsərlərindən ibarət sərgi ilə tanış olublar.

Mədəniyyət sarayının direktoru Cavid Şahbazbəyov tədbiri açaraq unudulmaz aktrisanın sənət yolundan bəhs edib. Bildirib ki, Musiqili Komediya Teatrının inkişafında müstəsna rol oynayan, qırx ildən çox işlədiyi sənət ocağının repertuar ağırlığını ləyaqətlə çiyinlərində daşıyan, Azərbaycan teatrsevərləri arasında "Qayınana" kimi sevilən Nəsibə Cahangir qızı Zeynalovanın xatirəsi yaddaşlarda əbədi yaşayacaq.




Sənətkarın həyat və yaradıcılığına həsr olunmuş videoçarx nümayiş olunub.

Əməkdar artistlər Çingiz Əhmədov və Mirzə Ağabəyli Nəsibə xanımla bağlı xatirələrini bölüşüblər.

Gecənin musiqili hissəsində "Yeni ulduz – 7" yarışmasında ikinci yerin sahibi Azad Şabanov, Prezident təqaüdçüsü, vokalçı Amil Həsənoğlu, Cəmalə Qambayeva, Aylin İlqar rəngarəng mahnı çələngi ilə çıxış ediblər.

Nəsibə Zeynalovanın oynadığı "Qayınana", "Ulduz", "Hicran" tamaşalarından səhnəciklər həvəskar aktyorlar Elgün Əliyev, Afaq Bayramova, Elxan Rəhimov, Mir-Zahid Məmmədovun iştirakı ilə nümayiş olunub. "Lalələr" rəqs kollektivinin çıxışı da tamaşaçılar tərəfindən rəğbətlə qarşılanıb.

Sənətkarın nəvəsi Nəsibə Əsgərova çıxış edərək belə gözəl tədbirin təşkilatçılarına və iştirakçılara təşəkkürünü bildirib.

Sonda tədbirin fəal iştirakçıları təşəkkürnamələrlə təltif olunublar.

# "Beşmanatlıq gəlin"ə təzə qiymət şərtdirsə...



Nə də olmasa, ortada uzun yol gələn bir iş və onu görənlər var. Bu günlərdə Akademik Musiqili Teatr sənətsevərləri hələ pandemiyadan öncə (mart 2020) səhnəyə çıxmağa hazırlaşan "Beşmanatlıq gəlin" tamaşasının premyerasına topladı...

Bəstəkar Səid Rüstəmov və yazıçı-dramaturq Məmməd Səid Ordubadinin birgə ərsəyə gətirdiyi musiqili komediya bu teatrın repertuarında 1940-cı ildən 1994-cü ilə qədər müxtəlif rejissorların quruluşlarında dəfələrlə göstərilib və rəğbətlə qarşılanıb. Süjet xəttində məişət mövzusunu əks etdirən, gözlənilməz və komik vəziyyətlərlə xoş ovqat yaradan əsərin yenidən repertuara daxil edilməsini istəyən və uzun əmək sərf edərək onu ərsəyə gətirən teatrın kollektivini alqışlamaq lazımdır.

Budəfəki retro komediyanın rejissoru Əməkdar incəsənət xadimi Əsgər Əsgərovdur. Yeni quruluşu ilə əvvəlkilərdən fərqli olduğu iddia edilən tamaşada Xalq artistləri İlham Namiq Kamal (Kəblə Hüseynəli), Fatma Mahmudova (Səlbi), Əməkdar artist İqrar Salamov (Möhsün), aktyorlar Möylə Mirzəliyev (Tahir), Ülviyyə Əliyeva (Gülnaz), Türkel Tariqpeyma (Naznaz), Səmədzadə Xasiyev (Qiyas), İbrahim Əlizadə (Nadir), Nigar Qarayeva (Komsomol katibi) iştirak edirdilər. Orkestr, xor və balet artistləri də tamaşanın tərkib hissəsi kimi onu daha baxımlı və templi saxlamağa çalışdılar.

Tamaşanın quruluşçu dirijoru Əməkdar incəsənət xadimi Fəxrəddin Atayev, quruluşçu baletmeysterləri Əməkdar artistlər Zakir və Leyla Ağayevlər, xormeysteri Əməkdar artist Vaqif Məstanov, quruluşçu rəssamı Əməkdar rəssam Nabat Səmədova, dirijoru Səməd Süleymanlı, konsertmeysteri Fidan Babayeva, rejissor assistenti Tamilla Aslanovadır.

Qısaca deyim ki, əsərdə bəzi insanlara xas acgözlük, pula hərislik, cahillik və bundan irəli gələn mənasız, çürük düşüncələrə bağlılıq tənqid olunur. Xüsusən müəllifin vurğusu keçmişin vaxtı ötmüş adətləri üzərindən parlaq gələcəyə ümid çağırışlarıdır.

Ailə-məişət mövzulu əsərdə də iki gəncin məhəbbəti və onların bütün maneələrdən saf sevgiləri ilə aşması ana xətti təşkil edir.

Ümumən səhnə imkanlarını yaxşı bilən və dramaturgiyanın əsas prinsiplərinə tam cavab verməyə çalışan bu əsərin müəllifləri sayəsində həm klassik komediya ənənələrinə nəzər salmış oluruq, həm də bir-birini izləyən sürətli keçidlər sayəsində oynaq bir nümunə seyr edirik. Amma bir məqam üzərində xüsusilə dayanmaq istərdim.

"Beşmanatlıq gəlin" musiqili komediyasının libretto müəllifi Məmməd Səid Ordubadi o dövr üçün səciyyəvi olan kolxoz həyatından bəhs edən süjeti qələmə alıb. Yəni əsərdə məişət və şəxsi münasibətlər tandemində kolxoz, birgə əmək, bərabərlik, sinfi ayrı-seçkiliklə mübarizə kimi mövzular bu dəfə rejissorun ironik baxış bucağında "Gələcəkdə pul olmayacaq" kimi kosmopolit arzu ilə tarıma çəkilir. Yəni nə hadisələrin nostalgiyasında daldalana bilirik, nə də... Sadəcə, onun baxış bucağına tamaşa edirik. Onu da deyim ki, quruluşçunun müasir həll verməyə çalışdığı bu tamaşanın əvvəlində və sonunda azan səslənməsi səhnəsindən başqa bütün tətbiqlərini anladım, ümumi planda əsas istəyinə çatdığını yəqin edə bildim: tamaşaçı qəşş edənədək gülməlidir.

Çağdaş tamaşaçıya zatən kosmik fəzadakı cisimlər kimi uzaq görünən feodal düşüncəli insanların kolxoza cəlbi, eləcə də kolxoz ənənəsinin çürük olmasının illər sonra təsdiqini tapması onsuz da onun emosiyasız, bir az da irəli getsək, etinasız qəbul edəcəyi mövzudur. Deməli, üzərində o qədər də dayanmaq gözlənilən effekti verməyəcək.

Yenilik, müqayisəli müasirlik demişkən, yadıma görkəmli teatrşünas Cəfər Cəfərovun bu barədə daim aktual sözləri düşdü. O, ötən əsrin 60-cı illərinin teatr mənzərəsini təsvir edərkən "Müasirlik son dərəcə əhatəli və mürəkkəb bir mövzudur. Onu teatr sahəsi ilə məhdud dairədə düşündükdə belə, qısa mülahizələrlə kifayətlənmək çox çətindir. Çünki bu halda həm müasirliyin ümumi mahiyyəti, həm də spesifik bir sahədəki təzahürü nəzərə alınmalıdır" deyirdi. Mənə elə gəlir ki, xüsusən klassik nümunələr, ələlxüsus da geriliyi, xurafatı əsas predmetə çevirən əsərlər səhnəyə qoyularkən bu incə məqam mütləq nəzərə alınmalıdır.

"Beşmanatlıq gəlin"in ən yaddaqalan keyfiyyətləri sırasında, sözsüz ki, duetlər xüsusi yer tutur. Ümumən librettodan irəli gələn məqamları öz zəngin musiqisi ilə olduqca gözəl təyin edən bəstəkar bizə xalq musiqisindən, onun milli xüsusiyyətlərindən bəhrələnməklə vəziyyətdən asılı olaraq şux, oynaq, həzin ariya, duet və mahnılarla yaxşı iş təqdim edir. Harmonik rəqslər, tamaşanın və xüsusən də bir çox hallarda solo ifaçıların çətin situasiyalardakı çıxış yoluna, xilasına çevrilən xor da tamaşaya rəng qata bildi. Sözümü qəribliyə salmadan məhz vokal, ayrı-ayrı aktyorların orkestrlə dialoqu arasındakı uçuruma ümumi dinləyici planından toxunmaq istərdim. Musiqili komediya əsərlərində aktyorun oyunundan, rejissorun traktovkasından, rəssamın səhnə tərtibatından çox yük, diqqət, tələb komediya sözündən əvvəl gələn musiqinin üzərinə düşür. Bu baxımdan könül istər ki, ümumən orkestr çökəyində olanlarla onlara tamaşaçıdan da yaxın olan səhnədəkilər arasındakı yol həm qısa, həm rəvan, həm də rahat olsun...

Qeyd etdiyimiz kimi, bu operettanı maraqlı, yaddaqalan edən ən yaxşı cəhəti onun qəhrəmanı olan cütlüklərinin duetləridir. Bu mənada Naznaz və Qiyasın, eləcə də Gülnaz və Nadirin lirik, səmimi, qulağa yatımlı duet və solo ifaları öz işlərini gördülər.

Əsərin mərkəzində duran komik surət – Kəblə Hüseynəli Xalq artisti İlham Namiq Kamalın təqdimatında – aktyor dinamikası, tamaşaçıya hesablanmış mimikaları, bütünlükdə səhnəni ələ almağa hesablanmış ifası sayəsində maraqlı və baxımlı idi. Bu mənada üç yaşlı kişinin – Kəblə Hüseynəli, Tahir və kar Möhsünün səhnəsi də yaxşı işlənmişdi və tamaşanın xüsusən ikinci hissəsindəki müəyyən məqamlarda cansıxıcı uzatmaların nəfəsliyi rolunu oynayırdı.

Fatma Mahmudovanın deyingən Səlbisi, ümumi tempi daim yüksəkdə saxlamağa hesablanmış balet nömrələri (rəqslər) də onların, kütləvi səhnədə olsa belə, müəyyən missiyalarının olduğunu göstərirdi.

"Beşmanatlıq gəlin"də musiqinin aparıcı rolu oynayan üslubu xalq mahnılarından gələn üslubdur. Yəni bəstəkar xalq mahnılarının xüsusiyyətlərindən istifadə etməklə ayrılıqda mahnı kimi də gözəl nümunələr yarada bilib. Bunu daha çox Qiyas və Gülnazın ifalarında sezə bildik.

Bayaqdan sadaladıqlarımızdan da göründüyü kimi, tamaşada hadisələr kolxoz quruluşunun hakim olduğu hansısa kənddə baş verir. Yəqin müəllif istəsəydi hər hansı kolorit, yaxud ştrix sayəsində bizə təsəvvüründəki bölgəni, mahalı, lap kəndi də göstərərdi. Amma o, bunu etmir. Onun əksinə olaraq, bəzi aktyorlarımız isə ara-sıra bizi gah Abşeron kəndlərinə, gah qərb mahallarına, gah da şimal ellərinə "dəvət" edirdilər.

Son olaraq deyim ki, Akademik Musiqili Teatrın tamaşaçı müzakirəsinə çıxardığı, hələ "qırmızı" duvağı solmayan "Beşmanatlıq gəlin"i əsas hədəfinə – komik situasiyaların tamaşaçının üzündə gülüş yaratmasına nail oldu. Təbii ki, burada aktyorların quruluş tələblərinə qatdıqları improvizələri, hər birinin oturuşmuş oyun üslubunu və tamaşaçı ilə yumoristik ünsiyyət dilinin olmasını da unutmaq olmaz.

Düşünürəm ki, keçmişin kif atmış düşüncələrinin yaxın tarixin süzgəcindən keçənlərini ayırmaq və klassik musiqili teatr ənənələrinin təsir imkanlarını təyin etmək üçün "Beşmanatlıq gəlin" əsl fürsətdir. Beləcə, həm ənənəvi komediya janrında nümunəni izləyəcək, həm də keyfiyyətli musiqinin dinləyicisi olacaqsınız.

**Həmidə NIZAMIQIZI**

## “Tarixdə qoyduğun izin silinməz...”

O, valideynlərini vaxtsız itirmişdi. Anası da Vətən idi, atası da. Ana yurda doğmaları kimi bağlı idi. Vətən müharibəsində xalqımıza Zəfər qüruru yaşadanlardan daha biri Tural Callad oğlu Cəlilov haqqında məlumat verəcəyik.



Tural Cəlilov 1996-cı il aprelin 10-da Qəbələ rayonunun Yeni Dizaxlı kəndində anadan olub. A.Rəhimov adına Yeni Dizaxlı kənd tam orta məktəbində təhsil alıb.

2014-cü ildə hərbi xidmətə yollanan Tural Tərtər rayonunda N saylı hərbi hissədə xidmət edir.

Sentyabrın 27-də əsir torpaqlarımızın azad olunması uğrundan başlayan Vətən müharibəsində könüllü ön cəbhəyə yollanır. Bir sıra döyüşlərdə iştirak edərək rəşadət göstərir. Oktyabrın 6-da Ağdərə istiqamətində gedən ağır döyüşlərdə qəhrəmancasına şəhid olur.

Şəhidin qardaşı İlkin Cəlilov qeyd edir ki, Tural kimi igidlər öz qanları ilə bayrağımızı ən yüksək zirvəyə ucaltdılar: “Düşünürəm ki, bundan sonra xüsusilə gənclərimiz şəhidlərin xatirəsini uca tutsunlar, hər uğurlarında onların məzarına gələrək halallıq alsınlar. Çünki şəhidlər bizim gələcək arzularımız üçün öz xəyallarını qurban verdilər. Ona görə də bizlər hər bir xoş anımızda şəhidlərimizə minnətdar olmalıyıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin”.

Qəhrəmanımızın digər qardaşı Mehman söyləyir ki, Tural çox ürəyitəmiz, mərd, zəhmətsevər, həm də dəcəl oğlan idi: “Hər dəfə kimsə məndən Turalın qardaşı olduğumu soruşanda, “görəsən, yenə nə dəcəllik edib” deyə düşünərək həyəcanlanırdım. Amma o, elə bir qəhrəmanlıq göstərdi ki, indi mən bütün dünyaya qışqıraraq demək istəyirəm ki, bəli, mən Turalın qardaşıyam”.

Mehman Turalın Vətənə olan sevgisini yazdığı misralarla belə ifadə edir:

*Necə çox sevirsənmiş Vətənini,*
*Onunçün canından keçdin, a qardaş!*
*Düşmən gülləsinə gərib sinəni,*
*Şəhadət şərbətin içdin, a qardaş!*

*Şəhidlik şərəfdir, məqamı uca,*
*Tarixdə qoyduğun izin silinməz,*
*Sizlər də varsınız biz var olunca,*
*Şəhidlər ölməzdir, Vətən bölünməz!*

Şəhidlərimizin həyat salnaməsini vərəqlədikcə, doğrudan da, onların həyatlarının bir tarix olduğunu görürük. Bu gün Turalla nəinki ailəsi, yaxınları, bütün Azərbaycan xalqı fəxr edir.

Tural Cəlilov oktyabrın 7-də doğulduğu Yeni Dizaxlı kəndində torpağa tapşırılıb. Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra “Vətən uğrunda”, “Laçının azad olunmasına görə” və “Suqovuşanın azad olunmasına görə” medalları ilə təltif olunub.

Allah rəhmət eləsin.

**NURƏDDİN**

# Həyat sanki onun üçün bir kino idi...

## Xalq artisti Səfurə İbrahimovanın fotolarda görünən sənət yolu

Azərbaycan Dövlət Film Fondunda Xalq artisti, Dövlət mükafatı laureatı Səfurə İbrahimovanın xatirəsinə həsr olunmuş fotosərgi barədə xəbər vermişdik. Görkəmli teatr və kino aktrisasının həyat və sənət yolunu əks etdirən fotoların nümayiş olunduğu sərgi ilə biz də tanış olduq.

Bu fotolar bir aktrisanın sənət yolunun nümayişindən əlavə, həm də bir qadın taleyinin cizgilərini əks etdirir. Ekspozisiyada 40-dan çox fotoşəkil yer alıb.

Səfurə İbrahimovanı Azərbaycan filmlərinin ən sevilən nümunələrində görüb sevmişik. “Sevil”də Dilbər, “Arşın mal alan”da Telli, “Qayınana”da Sədaqət və digər obrazları ilə tamaşaçı rəğbəti qazanan aktrisanın sevgisindən, şəfqətindən qəlbimizə bir sevgi, bir şəfqət nuru saçılıb. Səfurə İbrahimovanın kinoda yaratdığı obrazları fotosərgidə izləyəndə həyatı da bir film kimi canlanır gözümüz önündə. Fotolara tamaşa etdikcə gözəlliyi, xanımlığı, peşəkarlığı ilə yaddaşımıza əbədi həkk olan aktrisanın həm də acı taleyindən duyğulanmamaq, mütəəssir olmamaq mümkünsüzdür.

Sənət tarixinə nəzər yetirəndə görürük ki, bir çox aktyor və aktrisaların bu sahəyə gəlişi təsadüfi olub, adi bir təsadüf kimisə bir gündəcə sənət ulduzuna çevirib. Bu ulduzlar arasında qəfildən parladığı kimi, bir göz qırpımında sönənlər də olub, bəziləri isə sənətdə öz sözünü axıradək deməyi bacarıb.

1960-cı ildə M.Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun (indiki ADMİU) Dram və kino aktyorluğu fakültəsinə daxil olub. Birinci kursda oxuyarkən Akademik Dram Teatrının hazırladığı İslam Səfərlinin “Ana ürəyi” dramının tamaşasında Xatirə roluna dəvət olunub. Bundan sonra daha bir neçə rol oynayan tələbə-aktrisa 1961-ci ildən bu teatrın truppasına daxil edilib. Bununla da aktrisa öz istedadı ilə sənət kəhkəşanına aparan yolda büdrəmir, yalnız üzü zirvəyə doğru gedir...

Məlumdur ki, sovet rejimi xalqımızın bir sıra köklü adət-ənənələrinə, həmçinin Novruz bayramının keçirilməsinə mane olub. Tanınmış filoloq alim, dövlət və ictimai xadim Şıxəli Qurbanovun səyləri ilə 1967-ci ildə Novruz bayramı elliklə qeyd edilərkən ilk Bahar qız obrazını Səfurə İbrahimova yaradıb.







Yenə fotolara qayıdırıq... “Bizim küçə”, “Arşın mal alan”, “Bizim Cəbiş müəllim”, “O qızı tapın”, “Sevil”, “Qatır Məmməd”, “Alma almaya bənzər”, “Dərviş Parisi partladır”, “Tütək səsi”, “Qayınana” və s. bədii filmlərdən kadrlar və teatr səhnəsində yaratdığı obrazlar. Film yaradıcılığı bir qədər fərqli və təzadlıdır. Görəsən, bu qadın sənətdə öz sözünü tam deyə bildimi, arzuladığı rolları oynadımı, demədiyi nələr qaldı? Aktrisanın sənətdən küsüb getməsi bu sərgidə nümayiş olunan fotoların bir qədər az olmasında özünü göstərir. Sanki yarıda kəsilmiş ömrə bənzəyir bu fotosərgi. Kimdir günahkar, onun özümü, yoxsa sənət mühiti?...

Hər halda düşünürəm ki, aktrisanın müəmmalarla dolu tale yolu macərasız keçməyib. Onun sənət imkanları bəlkə də vaxtilə bəzi həmkarlarını xoflandırıb, qısqandırıb.

Sənət zirvəsinə aparan yol həm də cismani gözəllikdən başlayır və heç şübhəsiz, Səfurə xanımda da bu istisna deyildi. Onunla bağlı xatirələrini danışan sənət dostları da dəfələrlə eyni fikri vurğulayıblar. Aktrisanın birdən-birə sənətə gəlişi və uğurlu çıxışları birmənalı qarşılanmırdı. Bəlkə də elə bu səbəbdən həyat ondan ötrü bir kino idi. Baş rolunu da özü oynayırdı. Və ağlına belə gətirmirdi ki, bütün kinoların axırında eyni sözlər yazılır – “Filmin sonu”.

Səfurə İbrahimova 1938-ci il dekabrın 27-də Bakıda doğulub. 20-dən artıq filmdə maraqlı obrazlar yaradan aktrisa səhnədə də rəngarəng rollarla yaddaşlara köçüb.

21 dekabr 2020-ci ildə dünyadan köçdü. O, sanki bu dünyanın insanı deyildi, sirli-sehrli nağıllar aləmindən gəlmişdi və həmin o aləmə də geri döndü. Ömrünün çox hissəsini tənhalıqda keçirən unudulmaz aktrisa onu sevənlərin qəlbində əbədi yaşayacaq.

**Lalə AZƏRİ**

### Əliabbas Qədirov – 75

# Müqtədir sənətkar: teatr və kino xadimi

Siyəzən şəhərində orta təhsil alarkən məktəbimizdə və mədəniyyət sarayında fəaliyyət göstərən dram dərnəklərinin tamaşalarına həvəslə baxar, teatra sevgimizdən bəzən özümüz də səhnəciklərdə rol alardıq. Eyni zamanda vaxtaşırı Bakıdan gələn dövlət teatr kollektivlərini, peşəkar aktyorları görməyi toy-bayram hesab edərdik. Tələbəlik dövründə də paytaxtda, institutu qurtarandan sonra isə rayonda tez-tez teatra can atar, imkan olduqda isə xüsusi olaraq Bakıya elmi-mədəni tədbirlərə, konsert və tamaşalara gedərdik.

Yadıma gəldiyi qədər, keçən əsrin 60-80-ci illərində yaşlı və orta nəslə mənsub bir sıra görkəmli sənətkarlarla bərabər, Səməndər Rzayev, Fuad Poladov, Mikayıl Mirzə, Hamlet Xanızadə, Həsən Əbluc, Əliabbas Qədirov kimi gənc aktyorların oynadıqları tamaşalarda çox vaxt anşlaq olurdu. Əliabbas Qədirovun klassik və müasir pyeslərdəki rolları sevilə-sevilə baxılırdı.

Müqtədir sənətkarı – teatr və kino xadimi Əliabbas müəllimi ilk dəfə yaxından “İşarəni dənizdən gözləyin” (1986) filminin çəkilişlərində görmüşəm. Mərhum Ceyhun Mirzəyevin quruluş verdiyi bu filmdə o, inqilabçı bolşevik Həmid Sultanovun rolunu canlandırırdı. Mən isə incəsənəti, kinonu sevən biri olaraq həvəsimin ardınca gedib mətbuatda verilmiş elana əsasən, kütləvi səhnələrə yazılmışdım. Epizodlar “Filarmoniya bağı”nda və İçərişəhərdə lentə alınırdı...

İkinci dəfə görkəmli sənətkarı yaxından bir də 1990-cı il Azərbaycan SSR Ali Sovetinə deputat seçkilərində görmüşəm. Əliabbas Qədirov şair Ağasəfa ilə birlikdə rayonumuzdan Siyəzən namizədliyini vermiş qudası, mərhum Xalq şairi Cabir Novruzun vəkili idi. Mən isə Zarat kənd məktəbinin direktoru, mərhum Məryəm Həsənovanın vəkillərindən biri idim...

Üçüncü dəfə Əliabbas müəllimlə 1992-ci ildə Siyəzəndə böyük şair və dramaturq Hüseyn Cavidin anadan olmasının 110 illiyinə həsr edilmiş yubiley tədbirində görüşmüşdük. Yubiley tədbirini Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, görkəmli ədəbiyyatşünas-tənqidçi, akademiyanın müxbir üzvü mərhum Yaşar Qarayev və institutun əməkdaşı, Hüseyn Cavidin yaradıcılığından dissertasiya müdafiə edən bu sətirlərin müəllifi təşkil etmişdi. Lakin mən həm də siyəzənli – ev sahibi olaraq qonaqları qarşılamalı olduğuma görə bir gün əvvəl artıq doğma şəhərimizə gəlmişdim. Yaşar Qarayevin, respublikamızın bir sıra başqa elm və sənət xadimlərinin, filologiya elmləri doktoru, tanınmış şair Qasım Qasımzadənin, Xalq artisti Əliabbas Qədirovun iştirak etdiyi ədəbi-elmi axşamdan sonra ziyafət məclisində aktyorla üzbəüz oturmuş, səmimi şəkildə hal-əhval tutub, keçmiş xatirələri də yada salmışdıq. Sonralar da, sənətkarın vəfatına qədər Akademik Milli Dram Teatrına gedəndə fürsət düşən kimi onunla ayaqüstü olsa da, salamlaşıb kəlmə kəsərdik...



Əliabbas Gülabbas oğlu Qədirov 13 fevral 1946-cı ildə Bakıda anadan olmuşdu. Əslən Xızı rayonunun Yuxarı Əngəlan kəndindəndir. Bakıda 105 saylı məktəbi bitirmiş, aktyorluq sənətinə 8-ci sinifdən başlayaraq maraq göstərmişdi. Dəmiryolçular klubunda Xalq artisti Ağadadaş Qurbanovun rəhbərlik etdiyi dram kollektivinin üzvü olan Əliabbas romantik, monumental tamaşalarda oynamaq vərdişlərinin ibtidai əsaslarını həmin dram dərnəyində öyrənmişdi. Aktyor olmağı da elə burada qərara almışdı.

1965-ci ildə M.Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun (indiki ADMİU) Dram və kino aktyorluğu fakültəsinə qəbul edilmişdi. Sənət müəllimi SSRİ Xalq artisti, professor Mehdi Məmmədov, səhnə danışığı müəllimi isə Əməkdar artist, qiraət ustası Müxlis Cənizadə olmuşdu. Tələbəlik illərində institutun Tədris teatrının ştatlı aktyoru kimi Cəfər Cabbarlının “Aydın”, Hüseyn Cavidin “Azər”, Afanasi Salinskinin “Təbilçi qız” əsərlərinin tamaşalarında maraqlı rollar oynamışdı. Buna görə də Əliabbas Qədirov son kursda oxuyanda M.Məmmədov onu Akademik Dram Teatrında quruluş verdiyi H.Cavidin “Xəyyam” faciəsində Yusif roluna dəvət etmişdi.

Əliabbas müəllim Akademik Dram Teatrının gənc aktyoru kimi böyük səhnədə ilk addımından (aprel 1970-ci il) teatr ictimaiyyətinin nəzər-diqqətini özünə çəkə bilmişdi. Sənətkarın bu teatrın səhnəsində yaratdığı Xosrov (“Küləklər”, S.Rəhman), Vəli (“Xırs quldurbasan”, M.F.Axundzadə), Givi (“Darıxma, ana!”, N.Dumbadze), İlyas (“Aydın”, C.Cabbarlı), Qazan xan (“Torpağa sancılan qılınc”, N.Xəzri), Şirzad (“Şeyx Xiyabani”, İ.Əfəndiyev), Tərlan (“Sənsiz”, Ş.Qurbanov), Qraf Qloster (“Kral Lir”, V.Şekspir) və başqa obrazlar tamaşaçılar tərəfindən böyük maraq və rəğbətlə qarşılanmışdı.

Səhnə ustası həmçinin televiziya tamaşalarında da yaddaqalan obrazlar yaratmışdır. Oynadığı tamaşaların bir qismi Azərbaycan Televiziyasının “qızıl fond”una daxil. S.S.Axundovun “Laçın yuvası” (Cahangir), M.Muradın “Təkan” (Dilqəm), İ.Əfəndiyevin “Atayevlər ailəsi” (Cahangir), M.F.Axundzadənin “Hacı Qara” (Heydər bəy), Ə.Haqverdiyevin “Bəxtsiz cavan” (Fərhad), M.Bayciyevin “Duel” (İsgəndər) əsərlərinin teletamaşasında Əliabbas Qədirovun yaradıcılığı bir daha parlaq şəkildə öz təcəssümünü tapmışdır.

Görkəmli sənətkar kino aktyoru kimi də məşhur idi və bu sahədə böyük uğurlar qazanmışdı. Eldar Quliyevin çəkdiyi “Sevinc buxtası” ikiseriyalı bədii filmindəki baş qəhrəman Nazim roluna görə 1978-ci ildə Azərbaycan SSR-in Dövlət mükafatına layiq görülmüşdü. Aktyor bundan əlavə, “Xatirələr sahilində” (İmran), “Nəğmə dərsi” (Ata), “Nə yaxşı ki, Səməd Vurğun var” (Vaqif), “Bizim evin kişisi” (Mansur), “Qızıl uçurum” (Cəlil), “Qocalar” (Fəriz), “Babək” (Fəzl) kimi kinolentlərinə çəkilmişdir.

Əliabbas Qədirovun yaradıcılıq imkanları romantik və realist aktyor məktəblərinin estetik göstəricilərinə, psixoloji mahiyyətinə, fəlsəfi dərinliyinə uyğun idi. Daxilən hərarətli və ehtiraslı temperamentə, dinamik plastikaya malik aktyor olaraq oynadığı rolları janr xüsusiyyətlərinə görə fərqli, əlvan və bədii cəhətdən bitkin təsir bağışlayırdı.

O, eyni zamanda gözəl qiraət ustası idi. Onun səsində Füzuli, Vaqif, Nəsimi, Sabir və başqa şairlərimizin poetik nümunələri, habelə Qurani-Kərimdən ayələr lentə alınmışdır.

Dəyərli səhnə və ekran ustası yaradıcılıq uğurlarına görə 1982-ci ildə “Əməkdar artist”, 1989-cu ildə “Xalq artisti” fəxri adlarına, 2006-cı ildə “Şöhrət” ordeninə layiq görülmüşdür.

Əliabbas Qədirov 2001-ci ildə uzun illər çalışdığı, yaratdığı bir-birindən maraqlı obrazlarla silinməz iz qoyduğu Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının bədii rəhbəri və direktoru təyin edilmişdi. O, həmçinin Mədəniyyət və İncəsənət Universitetində yeni aktyor nəslinin yetişdirilməsinə töhfə vermişdi.

Xalq artisti Əliabbas Qədirov 8 mart 2006-cı ildə, 60 yaşında vəfat etmişdir. Müqtədir sənətkar, teatr və kino xadiminin adı mədəniyyət tariximizə əbədi yazılmışdır. Ruhu şad olsun.

**Rasim NƏBİOĞLU**
**Nizami adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi**

# Erməni vandalizmi cəzasız qalmamalıdır



Zəfər ruhu ilə yaşadığımız 2021-ci il başa çatmaqdadır. Azərbaycan tarixinin şanlı səhifəsi olan 44 günlük Vətən müharibəsində otuzillik əsarətdən qurtulan yurd yerlərimizdə geniş bərpa-quruculuq işləri başlanıb. Erməni işğalçıları otuz ilə yaxın bir müddətdə bu yerlərdə daşı-daş üstə qoymayıblar. Tar-mar edilən şəhər, qəsəbə və kəndlərimizlə bərabər yüzlərlə tarixi-mədəniyyət, memarlıq abidələrimiz də məhv edilib.

Qarabağımızın tacı olan Şuşada, Laçında, Ağdamda, Kəlbəcərdə və digər işğal olunmuş ərazilərimizdə məbədlər, qəbiristanlıqlar, məzarüstü abidələr, türbələr yerlə yeksan edilib, yararsız hala salınıb. Bu illər ərzində uçuq-sökük vəziyyətə gətirilən məscidlərimiz barbarlar tərəfindən tövləyə çevrilmiş, mədəni irsimizin bir hissəsi olan alban xristian məbədlərinin memarlığı, üzərindəki yazılar dəyişdirilərək erməniləşdirilmişdi.

Təəssüf ki, bu illər ərzində erməni vandallarının törətdiyi bəşəri cinayətlər, “Dünya mədəni və təbii irsin mühafizəsi haqqında” UNESCO-nun 1972-ci il Konvensiyası, “Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında” 1954-cü il Haaqa Konvensiyası kimi beynəlxalq sənədlərin kobud şəkildə pozulması dünya birliyi tərəfindən laqeydliklə qarşılanıb.

Bu gün mədəniyyətimizin paytaxtı Şuşada erməni barbarlığının qurbanı olmuş abidələrimiz bərpa edilir. Ermənilərin gülləbaran etdikləri abidələr – Natəvanın, Üzeyir bəyin, Bülbülün büstləri – bu gün əzəli məkanında, Şuşadadır. Molla Pənah Vaqifin türbəsi qısa müddətdə yüksək səviyyədə yenidən bərpa edilərək əvvəlki vəziyyətinə qaytarılıb.

Amma ermənilər tərəfindən dağıdılmış elə tarixi abidələrimiz var ki, onların bərpası qeyri-mümkündür. Laçında Həmzə Sultan, Soltan Əhməd saraylarını, Füzulidə XIII əsrə aid olan Əhmədalılar, Arğalı, Babı, Mir Əli türbələrini, XVII-XVIII əsrə aid karvansaraları, məscidləri, İbrahim türbəsini, Qubadlıda IV əsrə aid ibadətgah mağarasını, Qalalı qalasını, Göy qalanı buna misal çəkmək olar. Siyahını istənilən qədər artırmaq mümkündür. Çünki Qarabağ ərazisi qədim yaşayış məskəni, hər dövrü əks etdirən tarixi abidələrlə zəngin bir torpaq olub.

Bir ilə yaxındır ki, işğaldan azad edilmiş ərazilərdə Mədəniyyət Nazirliyi tərəfindən monitorinqlər aparılır, nəticələri barədə beynəlxalq təşkilatlara – UNESCO və İCESCO-ya məlumat verilir.

Ermənilərin mədəni irsimizə vurduğu ziyan hesablanaraq beynəlxalq hüquq normaları, konvensiyaların tələblərinə müvafiq olaraq işğalçıdan təzminat tələb edilməlidir. Beynəlxalq instansiyalar vasitəsilə Ermənistan məcbur edilməlidir ki, qəsb edib apardıqları tarixi-mədəni irs nümunələrini geri qaytarsınlar. İnanırıq ki, bu istiqamətdə görülən işlər özünün müsbət nəticəsini verəcək, erməni vandallarının törətdiyi vəhşiliklər dünya ictimaiyyətinə olduğu kimi çatdırılacaq, onlar beynəlxalq səviyyədə cəzalarını alacaqlar.

**Rəna ŞAHİRZAYEVA**
**Azərbaycan Dövlət Rəsm Qalereyasının elmi işçisi**

# "Öz dilimə min könüldən bağlıyam..."

## Ələkbər Ziyatayın şeirləri nəğmə olub könülləri oxşayıb

XX əsr Azərbaycan poeziyasında öz dəst-xətti ilə seçilən və sevilən şairlərdən biri də Ələkbər Ziyatay olub. Ədəbiyyata ötən əsrin 30-cu illərində gələn şair şeriyyətimizə zənginlik bəxş edib. Şeirləri könülləri oxşayan nəğmələrə çevrilib.

Ələkbər Həsən oğlu Ziyatay (Cəfərov) 21 dekabr 1913-cü ildə Gəncə şəhərində dünyaya göz açır. Yeddillik şəhər məktəbini bitirib İnşaat Texnikumuna daxil olur. Sonra Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki ADPU) Ədəbiyyat fakültəsində təhsil alır. Tələbəlik illərində bədii yaradıcılığa meyil göstərir, şeirlər qələmə alır. İnstitutun elmi şurasının qərarı ilə Azərbaycan dili kafedrasında müəllim kimi saxlanılır. Pedaqoji fəaliyyətlə yanaşı "Ədəbiyyat və incəsənət" qəzetində şöbə müdiri, Azərbaycan Yazıçılar İttifaqı Gəncə bölməsinin məsul katibi, "Azərnəşr"də redaktor vəzifələrində çalışır.

"Ziyatay" təxəllüsü götürən şairin şeirləri müxtəlif qəzet və jurnallarda dərc olunur. Şeirləri bəstəkarların da diqqətini çəkir, bir-birindən maraqlı nəğmələr könülləri oxşayır. Artıq o, ədəbi aləmdə nəğməkar şair kimi tanınmağa başlayır. Müəllifin şeirləri qəlbəyatan mahnılara çevrilir, müğənnilərin repertuarında özünə yer tapır. "Qəlbim gəl deyir", "Nə deyim", "Səninləyəm", "Azərbaycanım mənim", "Bakı gecələri", "Sənsən", "Dilimdilim ol, dilim", "Olmalıydın, olmadın" kimi əsərləri ilə oxucu rəğbətini qazanır.

Alim və tərcüməçi Kövsər Tarıverdiyeva xatirələrində nəğməkar şair haqqında belə yazır: "Şair Ələkbər Ziyatayı 1933-1937-ci illər arasında Azərbaycan Pedaqoji İnstitutunda oxuduğumuz tələbəlik illərindən tanıyırdım. O, istedadlı, mülayim təbiətli və əlaçı bir tələbə idi. Əlində hələ o dövrdə biz tələbələrin təsəvvüründə olmadığı qalın cildli ensiklopediyalara, rəsm albomlarına, dünya ədəbiyyatını və incəsənətini əks etdirən toplulara rast gəlmək olurdu...".



Ələkbər Ziyatayın yaradıcılığında müharibə mövzusu ayrıca yer tutur. Araşdırmalarda qeyd edilir ki, Xalq şairi Səməd Vurğunun 1941-1945-ci illər müharibəsi başlayan gün qələmə aldığı və dillər əzbərinə çevrilən "Vətənin keşiyində" şeiri onu bu mövzuda yazmağa ruhlandırıb. Bu baxımdan şairin "Qana qan deyə", "Nifrət", "Qalxan et dərdə qəzəb bayrağını" adlı şeirləri günümüzlə çox səsləşir.

Tanınmış şairin yaradıcılığında uşaqlar üçün maraqlı bədii nümunələr də kifayət qədərdir. Şairin "Kəpənək", "Nərminin oyuncaqları", "Salam, yeni dərs ili", "Sənin tutacağın yol", "Qoşulsun nəğməmizə" və s. digər şeirləri uşaqlar tərəfindən maraqla qarşılanıb.

Azərbaycan ədəbiyyatında nakam məhəbbətin uğursuzluğu ilə bağlı çoxsaylı nümunə var. Lakin Ələkbər Ziyatayın "Olmalıydın, olmadın" adlı qəzəli bu mövzuda qələmə alınan ən təsirli əsərlərdən biridir. Həmin qəzələ bəstələnən mahnı 70-80-ci illərdə dinləyicilər tərəfindən çox sevilib. Bu mahnı SSRİ Xalq artisti Zeynəb Xanlarovanın ifasında daha çox dinlənilib:

*Sən mənim ulduzlu dünyam*
*olmalıydın, olmadın,*
*Sən mənim bir dünya sevdam*
*olmalıydın, olmadın.*

Z.Xanlarova şair haqqında fikirlərini bölüşərkən deyib: "Ələkbər Ziyatay mənim çox sevdiyim şairlərdəndir. Onunla ilk dəfə bəstəkar Ələkbər Tağıyevin evində tanış olmuşam. Bəstəkar onun "Azərbaycanım mənim" adlı şeirinə musiqi yazmışdı. Mahnını birinci dəfə mən ifa etdim. Şairlə dostluğumuz da o vaxtdan başlayıb. O, ilk şeirlərini mənə də oxuyardı... O zaman onun "Olmalıydın, olmadın" şeirinə yazılan mahnını da ifa etdim. O mahnı çox populyarlıq qazandı. "Sənsən" şeirinə bəstələnən mahnı da mənim ifamda nəinki Azərbaycanda, hətta respublika hüdudlarından çox-çox uzaqlarda – Avstraliyada, Amerikada, İsraildə, Avropada da sevildi...".

Xalqına, vətəninə qəlbən bağlı olan Ələkbər Ziyatay vətənsevərlik ruhlu şeirlər də qələmə alıb. Dilimizin saflığı və şirinliyini "Doğma dilim" əsərində sənətkarlıqla tərənnüm edib:

*Doğma dilim, sən ki varsan dünyada,*
*Mən də varam söyləməyə haqlıyam.*
*Dost dillərə min hörmətim olsa da,*
*Öz dilimə min könüldən bağlıyam!*

*Qürbətdə də eşidəndə bu dili,*
*Hiss edirəm özümü öz elimdə.*
*Mahnıları uzaq-yaxın ellərin,*
*Doğmalaşır səsləndikcə dilimdə.*

Ələkbər Ziyatay qələmini tərcümə sahəsində də sınayıb. Azərbaycan oxucusu onun poetik tərcümələri vasitəsilə dünya ədəbiyyatının klassik nümunələri ilə tanış olub. O, müxtəlif illərdə Homerin "Odisseya", Əlişir Nəvainin "Yeddi səyyarə", "Fərhad və Şirin" əsərlərini, Lope de Veqanın "Nə yardan doyur, nə əldən qoyur", Bertold Brextin "Üç quruşluq opera", A.Qriboyedovun "Ağıldan bəla" komediyalarını və s. əsərləri dilimizə tərcümə edib.

Şair, tərcüməçi, pedaqoq və ictimai xadim Ələkbər Ziyatay 2 iyul 1982-ci ildə, 69 yaşında vəfat edib, Gəncədə dəfn olunub.

**Savalan FƏRƏCOV**

# İlmələrin ritmi

Ruhunda yaratmaq istedadı ilə dünyaya göz açan rəssam-şairə Xalidə Seyidovanın zamanın axarında həmkarı Hicranın timsalında digər "yarı"sını tapması ona nə qədər yaradıcılıq sevinci bəxş etmişdisə, sonralar onların dostları tərəfindən "qoşa qanad" kimi dəyərləndirilməsi hər ikisi üçün qürurverici olmuşdu. Məşhur "Əzimzadə məktəbi"ndə (1971-1975) və M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunda (1977-1982) ixtisas təhsili alan cütlüyün sonrakı fəaliyyəti bəzən müxtəlifliyi ilə seçilsə də, çox vaxt da birlikdə çalışmaları ilə səciyyələnmişdir.



Bu yerdə əlavə edək ki, həyat yoldaşının gözlənilməz vəfatından sonra Xalidə xanım yaradıcılığa yanaşı, üç qız övladının da qayğılarını çəkmişdir. "Hicran" təxəllüsü ilə şeirlər yazması da elə onun bu çox qayğılı günlərində baş tutmuşdur. Hazırda o, çoxsaylı təsviri və dekorativ-tətbiqi sənət nümunələri ilə yanaşı, artıq işıq üzü görmüş bir neçə şeir kitabının da müəllifidir. Respublikanın tanınmış xanəndələrinin repertuarında onun qələmə aldığı qəzəllərin yer alması və dinləyici zövqünü oxşaması da bu poetik nümunələrin dəyərindən xəbər verir...

Təhsildən sonra həm özü, həm də ömür-gün yoldaşı rəssamlığın müxtəlif sahələrinə aid əsərlər ərsəyə gətirsələr də, hər ikisi onların "tanınma nişanı"na çevrilə biləcək sənət nümunəsi yaratmaq istəyində olublar. Məsləhətləşmələrdən sonra iriölçülü toxuculuq nümunəsi yaratmağa qərar veriblər. Müəyyən müddət ərzində dünyanın ən böyük dekorativ-tətbiqi sənət nümunəsi sayılacaq (1996-cı ildə daha iriölçülü qobelen toxundu) bu əsər qobelen olmalıydı. Əslində, onlar məşhur müəllimləri Lətif Kərimovun tövsiyələrini gerçəkləşdirməyi arzulayırdılar. Hicran və Xalidə Seyidovların bir neçə il ərsəyə gətirdikləri və "Mənim Azərbaycanım" adlanan 150 kvadratmetrlik (10x15 metr) qobelenin eskizi 1986-cı ildə artıq hazır idi. Beş il sonra Sumqayıtdakı "Kimyaçı" Mədəniyyət sarayının foyesini bəzəyən əsər elə ictimailəşdiyi gündən böyük maraqla qarşılandı.

Bunu şərtləndirən başlıca səbəb ölçüsünün böyük olması ilə yanaşı, müəlliflərin onun yaradılmasında yüksək – həsədaparıcı sənətkarlıq nümayiş etdirmələri idi.

Qobelenin adından da göründüyü kimi onun məna-məzmun yükünü doğma Azərbaycanımızın uzaq-yaxın tarixinin bədiiləşdirilmiş təsviri təşkil edir. Bunun üçün müəlliflər kompozisiyanı hadisələrin və onların baş verməsində aparıcı olan müxtəlif şəxsiyyətlərin bir araya gətirilməsi üzərində qurmuşlar.



Müdriklər müdriki Dədə Qorqudu kompozisiyanın dominantı seçən və qəhrəmanlıq keçmişimizin simaları – Babək, Koroğlu, Qaçaq Nəbi və Həcərin, eləcə də əsrlərin sınağından çıxmış ədəbiyyat nümunələri yaradıcılarının təsvirlərini, memarlıq tikililəri və milli maddi-mədəniyyət nümunələri ilə əlaqələndirən müəllif cütlüyü son nəticədə doğma Azərbaycanımızın ümumiləşdirilmiş – cəlbedici "tarix və mənəviyyat xəritəsi"ni yaratmağa nail olmuşlar. Təsviri və dekorativ-tətbiqi sənət sahəsində əldə etdikləri nəzəri və praktiki biliklərin ustalıqla vəhdətinə nail olan müəlliflərin bununla da qobelenin orijinallığını şərtləndirmiş, bütünlükdə isə toxuculuq nümunəsinin duyulası monumentallığını əldə etmişlər. Qeyri-adi bədii tutumuna görə yurdun rəmzinə çevrilmiş bu əsərin qərarlaşdığı məkanın dominantına çevrilməsini bu gün onun "Kimyaçı" Mədəniyyət sarayına ayaq basan hər kəsi ovsunlaması da təsdiqləyir...

Bu böyük uğurun işığında qobelenə bağlılığını, onun bədiitexniki imkanlarını daha da genişləndirmək potensialına malik olduğunu yeni-yeni toxuculuq nümunələri ilə sərgiləyən Xalidə xanım zamanın axarında bir-birindən maraqlı əsərlər ərsəyə gətirmişdir. "Həyatın yaranışı", "Neft kontatası", "Müharibəyə yox!", Olimpiada", "Xoşbəxt uşaqlıq", "Yuxu", "Gecə və gündüz" və s. qobelenlərdə ifadə olunan ovqat daşıyıcılığı qabarıq duyulur. Qobelendə müxtəlif toxuculuq texnikalarının tətbiq olunmasının mümkünlüyü qarşılığında müəllifin həmin əsərlərin səthinə verdiyi fakturalı görüntüdə tamaşaçısını cəlb edən və yaşantılara bələyən estetik qaynaqlar kifayət qədərdir. Bu toxuculuq nümunələrində bədii həll müxtəlifliyi də diqqət çəkir. Rəssam bu halda texnoloji xüsusiyyətlərə yanaşı, bədii tutumun gözoxşayan, çox vaxt isə düşündürücü koloritlə



ifadəsinə də üstünlük verməsidir. Onun axıcı – oynaq ritmli ilmələrin rəng müxtəlifliyindən əldə etdiyi bədii tutumda müharibənin dəhşətlərinə, sirli-soraqlı asimanın "aysberq"liyinə, körpə röyasının şirinliyinə, "qara qızıl"ın dəyər daşıyıcılığına, uşaq qayğısızlığına tutulan "bədii güzgü"də tamaşaçısını dialoqa çəkmək gücündə olan estetik çalarlar mövcuddur...



Xalidə xanımın təsviri sənət sahəsindəki yaradıcılığı da maraq doğurur. Onun rəngkarlıq və qrafika sahəsində ərsəyə gətirdiyi tablo və lövhələri, bir çox hallarda olduğu kimi, heç də süjet orijinallığı və yeniliyi ilə fərqlənmir. Əksinə, bu motivlər nə qədər ənənəviliyi ilə seçilsə də, məhz bu məlum və çoxlarına adi görünən obyektlərə fərqli bədii münasibət göstərilməsi ilə göz oxşayır. Rəssamın yağlı boya ilə çəkdiyi "Günəbaxanlar", "Qayalar", "Naxçıvan laləlri", "Şərq ağaclarının ritmi", "Durnalar", "Payız nemətləri", "Dəvə karvanı", eləcə də akvarellə işlədiyi "Xəmsə" motivi" əsərlərində bizə tanış olan yer və obyektlərə tuşlanan gözlənilməz baxış və rakursların yaratdığı görüntülərdə ovqat daşıyıcılığı, poetik ruha bələnmə qabarıq nəzərə çarpır. Əsərlərdə realizmdən şərti-bədii improvizələrə kimi uzanan bədii şərh təsvirin estetik qaynağa çevrilməsinə yönəldildiyindən bu görüntülər davamlı axtarışların uğurlu nəticəsi kimi baxılır...

Xalidə xanımın bu gün də davam edən yaradıcılığında Qarabağ ünvanlı əsərlər xüsusi yer tutmaqdadır. Onun 44 günlük Vətən müharibəsində yaşadıqlarının gələcək tablolarda əbədiləşəcək ilk eskizləri də hazırdır. Müəllifin təsviri yaradıcılıq axtarışlarını poeziya ilə əlaqələndirilməsi sayəsində onun sözlərdən "toxunmuş" "Zəfər çələngi" yaranmaqdadır. Elə onun haqqında yazını da müzəffər Ordumuzu vəsf edən şeirlə tamamlamaq istəyirik:

*Zəfər! Zəfər! deyərkən,*
*Şəhidlər gələr gözə.*
*Qarabağ yaşadıqca,*
*Minnətdarıq biz sizə.*
*Buludlar ağı deyir,*
*Şəhid əsgərlərimə,*
*Dağlar vüqarın tökür,*
*Məzarının üstünə.*
*Qalibliyin məğrurdur,*
*İtki versə də qəhər.*
*Qarabağda gün doğur,*
*Bu gün zəfərli səhər...*

**Ziyadxan ƏLİYEV**
**Əməkdar incəsənət xadimi, professor**

## Xatirə təqvimi 22–24 dekabr

### Azərbaycan

**22 dekabr 1898** – Əməkdar incəsənət xadimi, rejissor, aktyor Ağarza Səməndər oğlu Quliyev (1898 – 15.9.1976) Lənkəranda doğulub. "Qara daşlar", "Səhər", "Ulduz" filmlərinə quruluş verib, filmlərdə çəkilib.

**22 dekabr 1906** – Xalq artisti, xanəndə Ələvsət Şirəli oğlu Sadıqov (1906-1971) anadan olub. 1930-cu ildən Dövlət Opera və Balet Teatrında çalışıb.

**22 dekabr 1911** – Tanınmış jurnalist, pedaqoq Nəsir Əsədulla oğlu İmanquliyev (1911-1998) Bakıda doğulub. "Bakı" və "Baku" qəzetlərinin yaradıcısı və 30 ilə yaxın baş redaktoru, Bakı Dövlət Universiteti Jurnalistika fakültəsinin professoru olub.

**22 dekabr 1920** – Yazıçı, ssenarist, rejissor, Xalq artisti Həsən Mehdi oğlu Seyidbəyli (1920 – 25.6.1980) Bakıda doğulub. "Uzaq sahillərdə" (İ.Qasımovla birgə), "Cəbhədən cəbhəyə" romanlarının, pyeslərin müəllifidir. "Telefonçu qız", "Bizim Cəbiş müəllim", "Nəsimi" filmlərinə quruluş verib. Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri olub.

**22 dekabr 1934** – Xalq artisti İbrahim Əhməd oğlu Məmmədov (Bənəniyarlı; 1934 – 9.9.2014) Naxçıvan MR Culfa rayonunun Bənəniyar kəndində doğulub. Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyoru olub.

**22 dekabr 1937** – Tarixçi, etnoqraf, AMEA-nın müxbir üzvü Arif Akim oğlu Abbasov (1937 – 21.4.2005) Naxçıvanda doğulub.

**22 dekabr 1939** – Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Rauf Əbdüləli oğlu İsmayılov (1939–2019) dünyaya gəlib. Milli Məclisin Təhsil, elm, din və mədəniyyət məsələləri daimi komissiyasının sədri olub.

**23 dekabr 1911** – Şərqşünas, tərcüməçi, professor, Əməkdar elm xadimi Məmməd Mübariz Əli oğlu Əlizadə (1911 – 9.4.1994) anadan olub. Nizaminin, Xaqaninin tədqiqatçısı olub. Mücirəddin Beyləqaninin şeirlərini farscadan dilimizə tərcümə edib.

**23 dekabr 1913** – Əməkdar artist İmamverdi Salman oğlu Bağırov (1913 – 6.5.1985) doğulub. İrəvan Dövlət Azərbaycan Dram Teatrı, Akademik Dram, Musiqili Komediya teatrlarında çalışıb.

**23 dekabr 1923** – Əməkdar incəsənət xadimi, rejissor Hüseyn Musa oğlu Sultanov (1923 – 30.3.1993) anadan olub.

**23 dekabr 1927** – Əməkdar mədəniyyət işçisi Nəcəf Abbas oğlu Həsənzadə (1927-2012) Bakıda anadan olub. Akademik Milli Dram Teatrında aktyor və rejissor assistenti kimi fəaliyyət göstərib, filmlərə çəkilib.

**23 dekabr 1945** – Əməkdar artist Sadiq Əliabbas oğlu İbrahimov (1945 – 20.8.2010) Bakıda doğulub. Akademik Milli Dram Teatrının aktyoru olub.

**23 dekabr 1946** – Xalq artisti, balerina, Dövlət mükafatı laureatı Çimnaz Məmməd qızı Babayeva (1946 – 23.12.2019) Bakıda doğulub. 1964-1977-ci illərdə Akademik Opera və Balet Teatrının solisti olub, teatrda baletmeyster kimi fəaliyyət göstərib.

**23 dekabr 1986** – Əməkdar artist Qurban Baxşəli oğlu Mirzəyev (1920-1986) vəfat edib. Ağdam Dövlət Dram Teatrının aktyoru olub.

**24 dekabr 1872** – Yazıçı-publisist, pedaqoq Ömər Faiq Nemanzadə (1872 – 10.10.1937) Gürcüstanda, Ahıska (Axalsıx) qəzasının Azqur kəndində doğulub. "Şərqi-rus" qəzetinin, "Molla Nəsrəddin" jurnalının yaradıcılarındandır. Gürcüstanda və Azərbaycanda xalq maarifi sahəsində çalışıb, repressiya qurbanı olub.

**24 dekabr 1926** – Əməkdar artist, balaban və klarnet ifaçısı Bəhruz Mahmud oğlu Zeynalov (1926 – 25.5.1998) Bakıda anadan olub.

**24 dekabr 1939** – Şair, yazıçı, tərcüməçi, Əməkdar mədəniyyət işçisi Məmməd Muxtar oğlu Aslan (1939 – 23.9.2015) Kəlbəcər rayonunun Laçın kəndində doğulub. Kitabları: "Durnalar lələk salır", "Ömrün yarı yaşında", "Saxla izimi, dünya" və s.

**24 dekabr 1954** – Xalq artisti Natalya Valeh qızı Tağıyeva (1954 – 16.1.2005) anadan olub. Dövlət Rus Dram Teatrının aktrisası olub, filmlərdə ("Dədə Qorqud", "Onun bəlalı sevgisi" və s.) çəkilib.

### Dünya

**22 dekabr 1858** – İtalyan bəstəkarı Cakomo Puççini (Giacomo Puccini; 1858 – 29.11.1924) anadan olub. "Bohema", "Toska", "Madam Batterflyay" operalarının müəllifidir.

**22 dekabr 1937** – Rus yazıçısı Eduard Uspenski (1937-2018) anadan olub. Uşaqlar üçün populyar əsərlərin ("Timsah Gena və dostları", "Fyodor dayı, it və pişik") müəllifidir.

**23 dekabr 1858** – Görkəmli rus rejissoru, dramaturq, Moskva Bədaye Teatrının qurucularından Vladimir İvanoviç Nemiroviç-Dançenko (1858-1943) anadan olub.

**23 dekabr 1931** – SSRİ Xalq artisti Lev Konstantinoviç Durov (1931 – 20.8.2015) anadan olub. "Azərbaycanfilm"də "Qorxma, mən səninləyəm!" (San Sanıç) filmində çəkilib.

**24 dekabr 1798** – Polyak şairi Adam Miskeviç (Adam Bernard Mickiewicz; 1798 – 26.11.1855) anadan olub.

**24 dekabr 1867** – Türk şairi Tofiq Fikrət (Mehmet Tevfik Fikret; 1867-1915) İstanbulda doğulub.

**24 dekabr 1906** – İngilis yazıçısı, detektiv əsərlər müəllifi Ceyms Hedli Çeyz (James Hadley Chase – Rene Brabazon Raymond; 1906-1985) anadan olub.

**Hazırladı: Vüqar ORXAN**

## "Nizaminin sənət xəzinəsi"

### Respublika Uşaq Kitabxanasının virtual sərgisi

F.Köçərli adına Respublika Uşaq Kitabxanası dahi Azərbaycan şair və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyinə həsr edilmiş "Nizaminin sənət xəzinəsi" adlı virtual sərgini istifadəçilərə təqdim edib.

Kitabxananın saytında təqdim olunan sərgi "Nizaminin sənət xəzinəsi", "Məhdudiyyətli uşaqlar üçün", "Qızıl fondda" və "Digər dillərdə" bölmələrindən ibarətdir.

Qeyd edək ki, sərgilənən 113 elektron resursdan 97-si tam mətnli kitabdır.

## Gənclər Kitabxanasının yeni buktreylerləri

C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının əməkdaşları tərəfindən dünya və Azərbaycan klassiklərinin, müasir yazarların əsərləri ilə bağlı buktreylerlər ("book trailer") hazırlanaraq "Youtube" kanalında yayımlanır.

Buktreyler kitabın məzmununu vizuallaşdırmaqla oxucular arasında təbliğinə istiqamətlənmiş, onun ən maraqlı anlarını özündə əks etdirən videoçarx və ya kitabın məzmunundan bəhs edən qısametrajlı filmdir. Məqsəd kitaba, mütaliəyə olan marağı artırmaq, gənc nəsli maraqlı, faydalı, mütaliəsi mühüm olan yerli və dünya ədəbiyyatı ilə tanış etməkdir.

Son dövrlərdə kitabxana əməkdaşları "Kitabxanaçı məsləhət edir" rubrikası altında Ernest Heminqueyin "Əcəl zəngi", Remarkın "Üç yoldaş", Tatyana De Rosneyin "Saranın açarı", Conatan Sviftin "Qulliverin səyahəti", Qurban Səidin "Əli və Nino", Viktor Hüqonun "Gülən adam" və s. əsərlərə buktreylerlər hazırlayıblar. Materiallar Azərbaycan və rus dillərində tərtib edilir və geniş istifadəçi auditoriyası üçün nəzərdə tutulur.

№94 (1871)
22 dekabr 2021
www.medeniyyet.az

# "Jazz mix"in ritmləri bu dəfə Vaqif Mustafazadəyə ehtiramla səsləndi

Heydər Əliyev Sarayının "Jazz mix" layihəsinin budəfəki konserti görkəmli bəstəkar və pianoçu, caz-muğam üslubunun banisi, Əməkdar artist Vaqif Mustafazadənin (1940-1979) xatirəsinə həsr olunmuşdu.



Dekabrın 16-da, bəstəkarın xatirə günündə təşkil edilən gecədə həm gənc, həm də peşəkar caz musiqiçilərinin çıxışları təqdim olundu. Müxtəlif caz stilistikasına uyğun kompozisiyalar – svinq, ballada, bassonava, caz-muğam elementlərinin yer aldığı proqram musiqisevərlərin ruhunu oxşadı.

Proqramda ilk çıxış Vətən müharibəsində Qələbəmizə həsr olunmuşdu. "Laçın" xalq mahnısı və görkəmli bəstəkar Cahangir Cahangirovun "Cənnətim Qarabağ" bəstəsinin caz versiyalarını Əməkdar artistlər İskəndər Ələsgərov (zərb alətləri), Ruslan Hüseynov (bas-gitara) və royalda Coşqun Qadaşov təqdim etdi.

Daha sonra Nicat Aslanovun caz qrupu öz peşəkar ifaları ilə tamaşaçıların qəlbini fəth etdi. "Baladadaşın ilk məhəbbəti" filmindən Emin Sabitoğlunun "Keçdiyim bütün yollar" musiqisinə Nicat Aslanov bu dəfə cazmen yanaşması ilə müraciət etmişdi. Nostalji və bütün nəsillər tərəfindən sevilən musiqi maraqla qarşılandı.

Caz bəlkə də dünyada ən çox qarışığı olan musiqidir. Afrika ritmlərindən tutmuş pop musiqisinə kimi bir çox janrın elementlərinə caz musiqisində rast gəlmək mümkündür. Elə bu səbəbdən də konsert boyu Bəhruz Zeynalın qrupu, Coşqun Qadaşov və dostları, Nicat Aslanov, Samira Jazzy, Nərmin Məmmədli, Şəfiqə Abbasova və Vladanın təqdim etdiyi caz improvizələrində biz bu qarışıq dünyaya bir daha baş vurub notların rəngarəng və krossvordsayaq hərəkətinin möcüzəsinə daldıq. "İsti caz"ın ruhlandırıcı təbiətinin saksofonda həm klassik musiqi, həm də "ragtime" ilə improvizasiyada təqdimatı konsertdə iştirak edən əcnəbi tamaşaçılara gənc Azərbaycan cazmenlərinin bacarığını nümayiş etdirirdi. Qarışıq caz elementlərinin yer aldığı konsertdə cazla "tanışlıq" arzulayan hər bir dinləyici məmnun idi. Konsert boyu Xalq artisti Salman Qəmbərovun müsahibələrinin birində səsləndirdiyi bir fikir dolanır yaddaşımda: "Ümumiyyətlə, "caz" sözünün tərcüməsi yoxdur, kimsə həddən ziyadə feyziyab olduğunu, heyranlığını bildirmək üçün "ca-aaz" adlandırıb, belə də qalıb".

Və... bütün bu heyranlığın içində bir də Vaqif Mustafazadə ruhuna ehtiram var idi. Zəngin Şərq koloritli orijinal kompozisiyaları və muğamla cazın qarışığı ilə onun gözəl improvizasiyaları ilə tanınan musiqiçi həle sağlığında canlı əfsanəyə çevrilmişdi. Onun yaradıcılığı bu gün həm Vətənimizdə, həm də xaricdə yüksək qiymətləndirilir.

Vaqif Mustafazadə sənətinə həsr edilən "Jazz mix" layihəsi unudulmaz ab-hava ilə yekunlaşdı.

**Lalə AZƏRİ**

# "Sevgi sərhəd tanımır"

## Ölkəmiz Çində ənənəvi xeyriyyə yarmarkasında təmsil olunur

Çində keçirilən ənənəvi "Sevgi sərhəd tanımır" adlı xeyriyyə yarmarkasında Azərbaycan növbəti dəfə təmsil olunur.

Çin Xalq Respublikası Dövlət Şurasının üzvü, xarici işlər naziri Van İnin xanımı Çian Veyin təşəbbüsü ilə keçirilən beynəlxalq xeyriyyə yarmarkasının açılışında çıxış edənlər vurğulayıblar ki, 2009-cu ildən etibarən təşkil olunan bu tədbir eyni zamanda iştirakçı ölkələrin mədəniyyətlərini tanıtmaq üçün bir imkandır.

Təşkilatçılar pandemiyanın yaratdığı vəziyyəti nəzərə alaraq, ötən il olduğu kimi, bu il də iştirakçı ölkələrin məhsullarının satışını elektron ticarət platformalarında reallaşdırmağa qərar veriblər. Xeyriyyə yarmarkasına ölkələr tərəfindən təqdim edilmiş məhsulların "Alibaba" şirkətinin elektron ticarət platformalarında satışı həyata keçirilir.

Qeyd edək ki, Çindəki səfirliyimiz bir neçə ildir "Sevgi sərhəd tanımır" yarmarkasında ölkəmizi təmsil edir. Bundan başqa, Heydər Əliyev Fondu əvvəlki illərdə "Sevgi sərhəd tanımır" xeyriyyə yarmarkasında Azərbaycanın iştirakına dəstək verməklə yanaşı, bu təşəbbüs çərçivəsində Yunnan vilayətinin ucqar Malipo qəsəbəsindəki 2 nömrəli məktəbin idman meydançasının yenidən qurulması layihəsinə 500 min yuan məbləğində ianə edib.

# "Qarabağ" muğam qrupunun İsveçdə konsertləri

İsveçin paytaxtı Stokholmda Nizami Gəncəvinin 880 illiyi münasibətilə ölkəmizin səfirliyinin təşkilatçılığı və UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının dəstəyi ilə muğam konserti keçirilib. Konsertdə Xalq artisti Mənsum İbrahimovun rəhbərliyi ilə "Qarabağ" muğam qrupu çıxış edib.



Azərbaycanın İsveçdəki səfiri Zaur Əhmədov qonaqları salamlayaraq, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin həyat və yaradıcılığından, onun dünya ədəbiyyatı və ədəbi fəlsəfəsinə olan töhfəsindən danışıb.

Stokholm Universitetinin professoru Səadət Kərimi çıxışında bildirib ki, Nizami Gəncəvinin vəfatından 8 əsr ötsə də, bu gün yazıçı və bəstəkarlar onun əsərlərindən ilhamlanır. Çünki Nizami Gəncəvi dahi təfəkkürü ilə dünyəvi ideallara əsaslanıb və öz əsərləri ilə bütün bəşəriyyətə səslənib.

Daha sonra təqdim olunan proqramda musiqiçilərimiz Azərbaycan muğam kompozisiyalarını ifa ediblər. Xanəndə Mənsum İbrahimov Xalq artisti Elçin Həşimov (tar), Əməkdar artistlər Elnur Əhmədov (kamança) və Kamran Kərimov (nağara) müşayiət ediblər. Konsert tamaşaçılar tərəfindən gurultulu alqışlarla qarşılanıb.

***

İsveç səfirliyimizin təşkilatçılığı və UNESCO üzrə Milli Komissiyanın dəstəyi ilə Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş növbəti muğam konserti Malmö şəhərində baş tutub. Konsertdə "Qarabağ" muğam qrupunun ifasında Azərbaycan muğam kompozisiyaları və Nizami Gəncəvinin şeirlərinə bəstələnən musiqilər səsləndirilib.

# 130 il əvvəlin Bakısına əsrarəngiz səyahət

## Milli İncəsənət Muzeyində fransız fotoqrafın sərgisi açılıb

*əvvəli səh. 1-də*

Azərbaycan Milli İncəsənət Muzeyində Fransanın tanınmış rəssam və heykəltəraşlarının sənət əsərlərinin qorunub saxlanıldığını söyləyən nazir müavini 2016-cı ildə keçirilən "Fransa incəsənəti Azərbaycan Milli İncəsənət Muzeyinin kolleksiyasından" adlı sərgidə bu dəyərli nümunələrin nümayiş etdirildiyini yada saldı.



Sevda Məmmədəliyeva çıxışının sonunda sərginin təşkilində əməyi olan hər kəsə, xüsusilə Fransanın ölkəmizdəki səfirliyinə və Milli İncəsənət Muzeyinin əməkdaşlarına təşəkkürünü bildirdi.

Fransanın ölkəmizdəki səfiri Zakari Qros söylədi ki, Pol Nadar (1856-1939) XIX əsrdə Fransada fotoqrafiya sənətinin qabaqcıllarından biri və nüfuzlu "Nadar" fotoqraf şirkətinin yaradıcısı Feliks Nadarın (1820-1910) oğlu idi. Feliks Turnaşon 20 yaşında ikən "Nadar" adını daşımağa qərar verir. 1854-cü ildə əsəriyyəti satirik olan 300 karikatura ilə "Pantheon Nadar" ortaya çıxır. 1860-cı ildə Parisin Kapüsin bulvarında yerləşən lüks studiyasına köçür. O, Parisin havadan görüntülərini çəkmək üçün hava şarına ilk minənlərdəndir. F.Nadar bizə ən məşhur simaların – Şarl Bodler, Ejen Delakrua, Viktor Hüqo, Jorj Sand kimi məşhurların fotoobrazlarını bəxş edib.

Səfir qeyd etdi ki, F.Nadarın yeganə oğlu Pol Nadar uşaqlıqdan atasının studiyasında işləyir və özünü yalnız fotoqrafiya sənətinə həsr edir. Pol 1890-cı ildə İstanbula, daha sonra isə Bakıya gəlir və şəhərin nadir fotolarını çəkir. O, sonra buradan Daşkəndə yola düşür və Bakıda çəkdiyi fotoşəkillərdən ibarət sərgi təşkil edir.

Layihənin kuratoru Könül Rəfiyeva bildirdi ki, sərgiyə bir ildən artıq müddətdə hazırlıq gedib. Qeyd olundu ki, sərgi Bakının bizə gəlib çatan mədəni irsi və onun dəyişməsinə dair sənədli bir layihədir. Sərgidə Bakıya aid 23 əsər nümayiş olunur.





Daha sonra rejissor Rüstəm Hüseynov və layihənin kuratoru Könül Rəfiyevanın Pol Nadar haqqında sənədli filmi nümayiş olundu.

Sonda sərginin açılışını bildirən rəmzi lent kəsildi. İştirakçılar sərgi ilə yaxından tanış oldular.

***

Sərginin açılışından sonra layihənin kuratoru Könül Rəfiyeva ilə həmsöhbət olduq.

Fransız fotoqrafın ölkəmizə və Orta Asiyaya səfəri ilə bağlı maraqlı faktlar söyləyən müsahibim bildirdi ki, 1890-cı ildə Beynəlxalq Yataq Vaqonları və Avropa Ekspresləri Cəmiyyəti Qafqaz və Rusiya Türküstanına səfər təşkil edir. Ehtimal olunur ki, Pol Nadar bu ekspedisiyaya fotoqraf kimi dəvət olunur. Beləliklə, o, Bakıdan keçməklə Daşkəndə qədər gedib çıxır. Parisə özü ilə gündəlik həyatı, abidələri, mənzərələri və bir çox portretləri çəkdiyi səfərindən 1800-ə yaxın neqativlə qayıdır. Fotoqrafiya tarixində özünəməxsus yer tutan bu şəkillər Pol Nadarın 2007-ci ildə işıq üzü görən "1890-cı il Türküstan Odisseyası" adlı kitab-albomunda yer alıb.

Könül xanım qeyd etdi ki, neft sənayesinin inkişafı ilə böyüyən təzadlar şəhəri Bakı Pol Nadara zəngin təəssürat bağışlayıb. Qədim məscidlər, şəhərin qədim qala divarlarının qarşısında müasir liman, yenicə tikilmiş avropasayağı iqamətgahlar, qədim İçərişəhərin kiçik evləri və əyri küçələri ilə, Şirvanşahlar sarayı, "Tiflis vağzalı" adlandırılan Bakı Dəmiryolu Vağzalının binası və başqa tikililər onun obyektivindən yayınmayıb...

Müsahibimdən ayrılıb sərgi ekspozisiyasını gəzirəm. 1890-cı ildə çəkilmiş fotolardakı bəzi tikililər bu gün də varlığını qoruyub saxlayır. Beziləri isə tamamilə dəyişib. Məsələn, şəhər qala divarları və indi qarşısında olmayan evlər, Şirvanşahlar sarayının şərq portalı yaxınlığındakı meydançadan görünən onlarla gəmi, Saray məscidi və onun arxasında tamamilə dəyişən şəhər mənzərəsi. Bu əsərlərə baxdıqca Bakının XIX əsrin sonlarındakı vəziyyəti haqqında təsəvvür formalaşır.

Qeyd edək ki, "Dahilərin portretləri", "Bakı" və "Türküstana səyahət" adlı üç tematik hissədən ibarət sərgi 2022-ci il fevralın 15-dək ziyarət üçün açıq olacaq. XIX əsrin sonlarındakı Bakıya qiyabi səyahət etmək istəsəniz, sərgiyə baş çəkin...

**Nurəddin MƏMMƏDLİ**

# TÜRKSOY-un "Nizami Gəncəvi" art-albomu Vyanada təqdim olunub

Vyanadakı Azərbaycan Mədəniyyət Mərkəzində (AMM) Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un dahi Azərbaycan şairinin 880 illiyi münasibətilə ingilis dilində nəşr etdiyi "Nizamini oxuyaq" (Reading Nizami Ganjavi) kitab-albomunun təqdimatı, sərgi və muğam konserti keçirilib.

AMM-in rəhbəri Leyla Qasımova bildirib ki, "Nizami ili"ndə dünyanın bir çox ölkələrində dahi Azərbaycan şairinin yubileyinə həsr olunmuş tədbirlər keçirilib. AMM-in təşkil etdiyi tədbirlər çərçivəsində rəssam Şəhla Abbasovanın "Yeddi gözəl" batika sərgisinin açılışı olub və şərqşünas alim Mixael Hess Nizaminin həyat və yaradıcılığına həsr olunmuş məruzə ilə çıxış edib.




Növbəti tədbirin TÜRKSOY-la əməkdaşlıq çərçivəsində hazırlandığını deyən Leyla Qasımova qeyd edib ki, Vyanada Nizami Gəncəvi mövzusunda kitabın təqdimatı özünəməxsus məna daşıyır. Çünki dahi şairin "Xəmsə"sinin nadir əlyazmalarından biri Avstriya Milli Kitabxanasının əlyazmalar fondunda qorunur və 2008-ci ildə Azərbaycan dövlətinin maddi dəstəyi ilə restavrasiya olunub.

TÜRKSOY-un Baş katibi Düsen Kaseinov kitab-albom barədə məlumat verib. Baş katib noyabr ayında Türkiyənin Ədirnə, Təkirdağ, Bursa və Antalya şəhərlərində Türk dünyası sənətçilərinin iştirakı ilə Nizaminin sözlərinə yazılmış əsərlərdən ibarət konsert proqramlarının uğurla keçirildiyini də diqqətə çatdırıb. Bildirib ki, "Nizami Gəncəvi İli"ndə Azərbaycanın hüdudlarından kənarda Nizami mövzusunda ilk tədbir keçirən qurumlar arasında TÜRKSOY öndə olub. "Nizamini oxuyaq" kitab-albomunda Türk dünyası rəssamlarının Nizaminin əsərlərinə çəkdikləri miniatürlər yer alıb. Təqdim edilən sərgidə miniatürlərlə yanaşı il 100 illik yubileyi qeyd edilən görkəmli Azərbaycan rəssamı Mikayıl Abdullayevin Nizami mövzusunda əsərləri də nümayiş olunur.



Tədbirdə daha sonra Avstriyada yaşayan gənc musiqiçilər Amina Maşkeyeva (fortepiano) və Yerassıl Hkamit (skripka) Qara Qarayevin "Yeddi gözəl" baletindən bir parça səsləndiriblər.

Konsert Əməkdar artist Nuriyyə Hüseynovanın bədii rəhbəri olduğu "Qorqud" folklor ansamblının konserti ilə davam edib. Konsertdə N.Hüseynova və Çilənay Bədəlova tərəfindən Nizami Gəncəvinin qəzəlləri üstündə muğam parçaları, eləcə də xalq mahnıları ifa olunub. Nizaminin qəzəlləri tanınmış şərqşünas alim Mixael Hessin tərcüməsində onun özü tərəfindən səsləndirilib.

# Azərbaycanlı dirijor və vokalçı Belarusun Böyük Teatrında

Belarusun Böyük Teatrında Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş dirijoru və musiqi rəhbəri, Əməkdar artist Əyyub Quliyevin dirijorluğu ilə konsert keçirilib.



Rusiya Federasiyası Şimali Osetiya-Alaniya Respublikasının Əməkdar artisti, tanınmış opera müğənnisi Yekaterina Semençuk və Mariinski Teatrının solisti Məhərrəm Hüseynovun solistliyi ilə baş tutan konsert sənətsevərlərin gurultulu alqışları ilə qarşılanıb. Tamaşaçılar arasında Azərbaycanın Belarusdakı səfiri Ülvi Baxşəliyev də olub.

"İnanılmaz hisslər idi. Yekaterina Semençukun yaradıcılığının və istedadının möhtəşəmliyini sözlə çatdırmaq çox çətindir. Möhtəşəm axşam üçün ona və gözəl bas-bariton Məhərrəm Hüseynova təşəkkür edirəm. Həmçinin Belarusun Böyük Teatrının simfonik orkestrinin musiqiçilərinə minnətdaram", - deyə Əyyub Quliyev konsertdən sonra qeyd edib.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187
**Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5146
**Sifariş:** 2762
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.